QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 204 (6168) 17 noyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayılda olublar



Bax 2

### Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "İnstagram" səhifəsində Cəbrayıldan görüntülər paylaşılıb

Bax 2



Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "İnstagram" səhifəsində Azərbaycanın işğaldan azad...

### Dmitri Kiselyov: Azərbaycan Ordusu indiyədək görünməmiş qüdrətə malikdir və bu, İlham Əliyevin xidmətləridir



"Rusiya 1" kanalında yayımlanan "Vesti nedeli" verilişində Qarabağda hərbi əməliyyatlara son qoyan üçtərəfli bəyanat barədə danışılıb. AZƏRTAC xəbər verir ki, verilişin aparıcısı Dmitri Kiselyov Azərbaycan Prezidenti İlham Əliyevin, Rusiya Prezidenti Vladimir Putinin...

Bax 2

### 17 noyabr Milli Dirçəliş Günüdür



Xalqımızın azadlıq mübarizəsinin əsas mərhələlərindən birini təşkil edən 17 noyabr - Milli Dirçəliş Günü Azərbaycanın müstəqilliyinin bərpa edilməsində tarixi rol oynayıb. Mənəvi əsaslarını və başlanğıcını ötən əsrin...

Bax 4

### Şuşada Gövhər ağa məscidinə elektrik enerjisi verildi

"Azərişıq" ASC işğaldan azad olunan ərazilərimizin elektrik enerjisi ilə təchizatına başlayıb. Xezerxeber.az-ın məlumatına görə, artıq Şuşa şəhərində bununla bağlı işlər başlanıb...



Bax 7

### Azərbaycana Türkiyə hərbi qüvvələrinin göndərilməsini dəstəkləyən sənədin mətni

Bax 5



"Dost və qardaş ölkə Azərbaycanın işğal altındakı torpaqlarını azad etmək üçün apardığı mübarizə illərdir davam edir. Ermənistanın 27 sentyabr 2020-ci il tarixində Dağlıq Qarabağda cəbhə xətti boyu hərbi hədəflərə və mülki əhaliyə hücumlarına cavab olaraq Azərbaycan özünümüdafiə hüququndan istifadə edərək əks-həmlə əməliyyatı başlayıb...

### Paşinyan: Qarabağla bağlı razılaşma dəyişdirilə bilməz



Bax 5

### Bəhruz Quliyev: "Paşinyan təqribən 15 minə yaxın erməni hərbçisinin məhv edildiyini niyə gizlədir?"



Bax 5

### Erməni valideynlər: "Uşaqlarımızı geri qaytarın, onlar haradadır?"



Bax 10



# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayılda olublar

Noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar.

## Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "İnstagram" səhifəsində Cəbrayıldan görüntülər paylaşılıb



Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "İnstagram" səhifəsində Azərbaycanın işğaldan azad edilmiş Cəbrayıl rayonundan görüntülər paylaşılıb. SİA həmin görüntüləri təqdim edir:

## Hikmət Hacıyev: Ermənistanın Kəlbəcərdən çıxması da vandalizm aktları ilə müşahidə olunur



Ermənistanın Kəlbəcərdən çıxması da vandalizm aktları ilə müşahidə olunmaqdadır. Ərazilərimizin işğaldan azad edilməsi prosesində son məqamda da maddi mədəniyyət abidələrinə zərərlərin vurulması həyata keçirilir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev noyabrın 15-də keçirilən brifinqdə söyləyib.

"Ağdamda Tiqranakert adlandırdıqları ərazidə qanunsuz arxeoloji qazıntılar aparırdılar. Bu qazıntılar zamanı əldə edilənlərin Ermənistana aparılması cəhdləri də var. Bu, beynəlxalq qanunların pozulmasıdır. Azərbaycanın işğal olunmuş ərazilərində maddi-mədəni irsi talan edən də Ermənistan olub. Biz işğal olunmuş ərazilərdə maddi mədəniyyət abidələrinə, xüsusən məscidlərinə vurulan zərərləri görürük, hətta məscidlərdə donuzlar saxlanılıb. Daha ətraflı araşdırmalardan sonra Ermənistanın barbar əməllərinin nəticələri bir daha özünü büruzə verəcək", - deyə Prezidentin köməkçisi qeyd edib.

## Dmitri Kiselyov: Azərbaycan Ordusu indiyədək görünməmiş qüdrətə malikdir və bu, İlham Əliyevin xidmətləridir

***"Rusiya 1" kanalında yayımlanan "Vesti nedeli" verilişində Qarabağda hərbi əməliyyatlara son qoyan üçtərəfli bəyanat barədə danışılıb. AZƏRTAC xəbər verir ki, verilişin aparıcısı Dmitri Kiselyov Azərbaycan Prezidenti İlham Əliyevin, Rusiya Prezidenti Vladimir Putinin və Ermənistanın baş naziri Nikol Paşinyanın imzaladıqları sülh bəyanatından sonra Qarabağda müharibəyə son qoyulduğunu qeyd edib.***




Kiselyov Ermənistan baş nazirinin Cıdır düzündə rəqs etdiyi kadrların nümayişi fonunda qeyd edib ki, Paşinyanın bu hərəkəti Bakıda təxribat kimi qarşılanmışdı. "İlham Əliyev prezidentliyi dövründə, - onun dövlətin sükanı arxasında uzun müddət qalmaq şansı böyükdür, - Qarabağın statusu olmayacağını bəyan edib", - deyə D.Kiselyov bildirib.

Jurnalist vurğulayıb ki, hazırda Azərbaycan İkinci Qarabağ müharibəsində qələbəsini qeyd edir. Azərbaycan Ordusu indiyədək görünməmiş qüdrətə malikdir və bütün bunlar İlham Əliyevin xidmətləridir.

D.Kiselyov xatırladıb ki, iki il yarım bundan əvvəl rəngli inqilablar texnologiyası əsasında hakimiyyətə gələn Paşinyan Azərbaycan ilə danışıqlardan imtina edərək "Qarabağ Ermənistandır və nöqtə" demiş, danışıqlar masası arxasına oturmaq əvəzinə Şuşaya rəqs etməyə getmişdi. Paşinyanın bu "özgüvəni"nin arxasında Ermənistanı və Qarabağı aldatmaq məqsədi dururdu. Vəziyyətin yetərincə qiymətləndirilməməsi son nəticədə Paşinyanın bacarıqsız komandasını döyüşlər zamanı lap əvvələn sonadək öz xalqını aldatmağa vadar etmişdi.

"İndi nə olacaq" deyə D.Kiselyov soruşur və əlavə edir ki, Ermənistan ordusu yerlə-yeksan olub. Ermənistanın indi çətin dövrlər yaşadığını vurğulayan D.Kiselyov itki yarasının zamanla qasnaq bağladığını yada salaraq bu zamanı inkar, qəzəb, alver, depressiya və qəbuletmə kimi mərhələlərə bölüb. Rusiyalı jurnalist deyib: "Ermənistan inkar mərhələsini artıq ötüb, indi qəzəb mərhələsini yaşayır. Növbəti mərhələ isə ölkə daxilində və xaricdəkilərlə alverdir".

## İslam Əməkdaşlıq Təşkilatı bir daha Azərbaycana dəstəyini ifadə edib

İslam Əməkdaşlıq Təşkilatının Baş Katibliyi Azərbaycan və Ermənistan arasında döyüşlərin dayandırılmasını alqışlayır. AZƏRTAC xəbər verir ki, təşkilatın noyabrın 16-da yayılmış bəyanatında deyilir: "İslam Əməkdaşlıq Təşkilatının Baş Katibliyi Azərbaycanın işğal olunmuş Qarabağ bölgəsində Azərbaycan və Ermənistan arasında döyüşlərin dayandırılmasının elan edilməsini alqışlayır.

Baş Katiblik Azərbaycanla Ermənistan arasındakı münaqişənin İƏT və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamə və qərarları əsasında həll olunmasını daim dəstəkləyib.

İƏT-in Baş Katibliyi Azərbaycan Respublikası ilə həmrəyliyini bir daha ifadə edərək, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədləri prinsipləri əsasında, Azərbaycanın işğal altında qalan digər ərazilərindən də tam və qeyd-şərtsiz çıxarılmasına ümid etdiyini bildirir".

## Nüfuzlu politoloq "Arabnews"a yazıb: Azərbaycan müharibənin qalibidir


ARAB NEWS

Winners and losers in the Caucasus

Dünya İqtisadi Forumunun məsləhətçisi, "Meyer Resources" konsaltinq şirkətinin icraçı direktoru Kornelia Meyer Səudiyyə Ərəbistanının ingilis dilində nəşr olunan "Arabnews" qəzetinə "Qafqazda qaliblər və məğlublar" sərlövhəli analitik məqalə yazıb.

AZƏRTAC xəbər verir ki, müəllif Qarabağ müharibəsinin qalibinin Azərbaycan olduğunu qeyd edib. O əlavə edib ki, Azərbaycan xalqının Qələbəni sevinclə bayram etdiyi bu günlərdə ermənilər Yerevanın küçələrində Paşinyanın istefasını tələb edirlər. Müəllif yazır ki, Qarabağa sülhməramlı qoşun hissələri göndərən Rusiyanın Cənubi Qafqaz regionunda təsirinin güclənməsi uzun illər münaqişənin nizama salınmasına biganə yanaşan Avropa İttifaqı və ABŞ üçün heç də yaxşı perspektiv vəd etmir. Türkiyəyə gəldikdə isə, K.Meyer qeyd edir ki, rəsmi Ankara öz müttəfiqi Azərbaycana dəstəyini gücləndirərək, eyni zamanda, sülhməramlı missiyada fəal iştirak edəcək.

Məqalədə ATƏT-in Minsk qrupunun müharibə günlərində fəaliyyətsiz olmasına da diqqət çəkilir. K.Meyer qeyd edir ki, müharibənin dayandırılması üzrə danışıqlarda heç bir rol oynamayan Avropa ölkələrini də məğlub hesab etmək olar. "Qarabağ və Qafqaz ərazi olaraq bizdən uzaqda yerləşir, lakin bu region strateji əhəmiyyətə malikdir. Koronavirus pandemiyasının yayıldığı və neftin qiymətlərinin aşağı düşdüyü, habelə Çinin İpək yolu və Kəmər layihələri ilə bölgədə təsirini artırdığı bir şəraitdə sözügedən regionda Avropa ölkələri və ABŞ deyil, məhz Rusiya və Türkiyənin təsiri artdı. Bu, Azərbaycan və müharibənin dayanmasında həlledici rol oynayan ölkələr üçün geosiyasi qələbədir", - deyə müəllif vurğulayır.

K.Meyer sonda yazır ki, çətinliklə əldə olunan razılaşma ermənilərə çox baha başa gəlib və yaxın gələcəkdə Ermənistanda olduqca ağır proseslərin şahidi ola bilərik.

# Tariximizi dəyişən böyük qələbə!

## *Prezident İlham Əliyev: "İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq"*

***Bu gün Azərbaycan 44 gündə son əsrlərin ən böyük zəfərini yaşayır və ilk dəfə olaraq bu miqyasda tarixi torpaqlarını qaytarmağa nail oldu. Vətən Müharibəsinin 44 gün ərzində "Qarabağ Azəbaycandır və QƏLƏBƏ NİDA"-sını qoyan və bununla da tariximizə ən parlaq səhifəsini yazdı. Bu qalibin məğlub üzərindəki - Ali Baş Komandanımız, Prezident cənab İlham Əliyevin diplomatik və qətiyyətli siyasətinin, Güclü Ordumuzun, Rəşadətli əsgər və zabitlərimizin qələbəsidir. Bu haqqın qələbəsidir. Bu Azərbaycan xalqının qələbəsidir.***



### 44 GÜN - VƏTƏN MÜHARİBƏSİNİN ƏN PARLAQ SƏHİFƏSİ

Sentyabrın 27-dən başlayan, 44 gün davam edən və Dağlıq Qarabağ da daxil olmaqla işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Azərbaycan xalqı öz Liderinin - Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Və hər bir qələbə müjdəsini də xalqına çatdırmaqdan qürur duyan Ali Baş Komandanımız 44-cü günün son həftə sevincini də xalqına çatdıran Azərbaycan Prezidenti İlham Əliyev : "Biz öz Vətənimizə, doğma Qarabağımıza qaydırıq" deyib.

### "MƏN DƏ XOŞBƏXTƏM Kİ, BU XOŞ XƏBƏRLƏRİ, BU MÜJDƏNİ AZƏRBAYCAN XALQINA VERİRƏM"

Ali Baş Komandan xalqa müraciətində bildirib ki, hər dəfə qələbə müjdəsini xalqına çatdırmaqdan qürur duyduğunu bildirib: "Mən də xoşbəxtəm ki, bu xoş xəbərləri, bu müjdəni Azərbaycan xalqına verirəm. Xoşbəxtəm ki, bu tarixi sənədə imza atmışam. Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq. Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz". Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə sentyabrın 27-dən etibarən zəfər yürüşünə başladı. 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi, uzun illər ərzində işğal olunan Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli, Şuşa, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəkliklər işğaldan azad olundu. Beləliklə, 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi.

Düşmənin 30 ildir qurduğu, milyonlarla vəsait sərf etdiyi nəhəng istehkamlar qısa müddətdə darmadağın edildi, Milli ordumuzun tətbiq etdiyi müharibə strategiyası müasir dövr hərb tarixinə qabaqcıl nümunə kimi həkk olundu. Ermənistan ordusu, ermənilərin özləri haqqında yaratdığı "məğlubedilməzlik" mifi darmadağın oldu. Düşmən ordunun yüzlərlə texnikası, minlərlə canlı qüvvəsi məhv edildi. Noyabrın 8-də Şuşanın, 9-da 71-dən artıq kəndin, 1 qəsəbənin, 8 strateji yüksəkliyin alınması, bunun ardınca, noyabrın 10-da Ermənistanın ağ bayraq qaldırması, kapitulyasiya etməsi, Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin dekabrın 1-nə kimi daha 3 rayonun - Kəlbəcərin, Ağdamın və Laçının müharibəsiz və deməli qansız, şəhidsiz qaytarılmasını nəzərdə tutan birgə bəyanat imzalaması tariximizə ZƏFƏR HƏFTƏSİ kimi həkk olundu. Bu zəfərə nail olmağımız - Müzəffər Ali Baş Komandan-Xalq-Güclü Ordu Birliyi və Rəşadətli əsgər və zabitlərimizdir.

Ən əsası isə, Ermənistanın təslim olması ilə nəticələnən bəyanatın rəsmi şəkildə elan edilməsi sübut etdi ki ölkəmiz işğal altında olan torpaqlarını müstəqil şəkildə azad etməyə qadirdir. Azərbaycan bütün dünyaya göstərdi ki, Onun savaşı haqq savaşıdır. Və haqq savaşı aparan Azərbaycan avantürist Ermənistanın təcavüzkar silahlı qüvvələrini darmadağın etdi, işğal altında qalan torpaqlarımızı əsl sahibinə qaytardı.

### "ŞUŞASIZ QARABAĞ, QARABAĞSIZ AZƏRBAYCAN YOXDUR" - DEYƏN ULU ÖNDƏRİN ARZUSUNU REALLAŞDIRDI

Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ulu Öndərin arzusunu reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!".

Ölkə Prezidenti İlham Əliyevin xalqa müraciətində səsləndirdiyi bu sözlər hər bir azərbaycanlında böyük sevinc və qürur hisləri yaratdı. Bu böyük qələbə eyni zamanda Azərbaycan xalqını dünyaya qürurlu xalq kimi tanıtdı. "Dağlıq Qarabağ Azərbaycan torpağı, beynəlxalq səviyyədə tanınan ərazimiz olmaqla yanaşı, ədalət məsələsidir, Azərbaycanın milli qürur məsələsidir",-deyən Prezidentimizə olan inamı, sevgini birə beş artırdı. "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Ulu Öndərin Prezidentimiz İlham Əliyev haqqında dediyi bu fikirlərin hər keçən gün öz təsdiqini tapdığının, hər bir azərbaycanlının Prezidenti olduğunun şahidi olur.

Bu gün Azərbaycan Qarabağa qovuşdu, tarixi zəfərə imza atdı, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə digər şəhər və rayonlarımızda soyqırımları zamanı həlak olan günahsız insanların qisasını döyüş meydanında aldı, işğalçı Ermənistana layiq olduğu yeri göstərdi. Bu qələbəni, zəfəri bizlərə yaşadan isə Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı ölkə Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, Güclü Ordumuz, Rəşadətli əsgər və zabitlərimizdir.

Beləliklə, "Qarabağ Azərbaycandır və nida işarəsi"-söyləyən Prezidentimiz hər zaman olduğu kimi bu dəfə də vədinə əməl etdi. Noyabrın 10-u xalqımızın tarixinə şanlı, qızıl hərflərlə yazıldı! 30 ildən sonra Prezidentimiz, Ali Baş Komandan İlham

Əliyevin rəhbərliyi ilə sübuta yetirdik ki, bir qarış torpağımızı belə heç kəsə verən deyilik.

### QARABAĞ AZƏRBAYCANDIR!

"Qarabağ Azərbaycandır və nida" ifadəsi artıq bizim qələbəmizin rəmzinə çevrilib. Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi"_deyən Müzəffər Ali Baş Komandan onu da bildirdi: "Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir! Zəngilan bizimdir! Qubadlı bizimdir! Ağdam bizimdir! Laçın bizimdir! Kəlbəcər bizimdir! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!".

Azərbaycan son əsrlərin ən böyük zəfərini yaşayır. Belə ki, Şah İsmayıl və Nadir şahdan sonra Azərbaycan ilk dəfə olaraq bu miqyasda tarixi torpaqlarını qaytarmağa nail oldu. Bu zəfər ona görə böyük qələbədir ki, ermənilərin 200 il davam edən sərsəm xülyalarına Azərbaycan son qoydu. Məhz bu gün bir milyondan artıq insan "köçkün" damğasından qurtuldu, 30 illik torpaq, doğma yurd-yuva həsrətinə son qoyuldu. Məhz bu gün Azərbaycanın ərazi bütövlüyü yenidən bərpa olundu. Azərbaycan Qarabağa qovuşdu, tarixi ədalət bərpa olundu. Bu 44 gün ərzində Azərbaycan xalqı öz liderinin - Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək, bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi.

Bəli, Azərbaycan düşmən üzərində tarixi zəfər qazandı. Həm də elə bir zəfər qazandı ki, onilliklərboyu unudulmayacaq. Çünki Azrbaycan prezidenti İlham Əliyev 17 illik Prezidentlik fəaliyyətində sürətlə inkişaf etdirdiyi, möhkəmləndirdiyi respublikamızın uğurlu hərbi əməliyyatları da güclü dövlətin ortaya qoyduğu reallıq idi və 44 gün ərzində beynəlxalq təzyiqləri layiqincə dəf etdi. Ən əsası, Ali Baş Komandan bir daha bütün dünyaya sübut etdi ki, heç bir qüvvə Azərbaycanı özünün haqq yolundan döndərə bilməz.

### "İKİNCİ QARABAĞ MÜHARİBƏSİ TARİXDƏ AZƏRBAYCANIN ŞANLI QƏLƏBƏSİ KİMİ QALACAQ"

"İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq",-deyən dvlət başçımız bildirib: "Bu, bizim hamımızın qələbəsidir, bütün Azərbaycan xalqının. Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır".

Budur, xalqının Lideri olmaq! Budur sözü ilə əməli düz olmaq! Budur XALQ-İQTİDAR-ORDU birliyi!. Məhz bu birliyin nəticəsində Böyük Qələbəmizə nail olduq. Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının dediyi kimi: "Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir! Zəngilan bizimdir! Qubadlı bizimdir! Ağdam bizimdir! Laçın bizimdir! Kəlbəcər bizimdir! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!"

Eşq olsun Ali Baş Komandan İlham Əliyevə! Eşq olsun qüdrətli Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan!.

Ona görə 44 günlük qəhrəmanlıq savaşımız tarix boyu şanlı qürur mənbəyimiz olaraq qalacaq!

***RƏFİQƏ KAMALQIZI***

# 17 noyabr Milli Dirçəliş Günüdür



***Xalqımızın azadlıq mübarizəsinin əsas mərhələlərindən birini təşkil edən 17 noyabr - Milli Dirçəliş Günü Azərbaycanın müstəqilliyinin bərpa edilməsində tarixi rol oynayıb.***

Mənəvi əsaslarını və başlanğıcını ötən əsrin 60-cı illərindən götürən bu tarix sonralar ulu öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi və müdrikliyi ilə dönməz xarakter aldı, müstəqil Azərbaycan müasir inkişaf yoluna qədəm qoydu.

Ötən əsrin axırlarında dünyanın altıda birini əhatə edən Sovet İttifaqının iqtisadi, siyasi, mənəvi və ideoloji dayaqları sarsılmışdı. İmperiyanın siyasi "beyin mərkəzi"nin xalqlara, xüsusilə Azərbaycan xalqına qarşı yürütdüyü ayrı-seçkilik siyasəti kəskin xarakter aldı. M.Qorbaçov hakimiyyətinin dəstəyi ilə ermənilər Dağlıq Qarabağda azərbaycanlılara qarşı haqsız ərazi iddialarına başladı. Ermənilərin Topxanada törətdikləri vəhşiliklər, Ağdamda isə iki azərbaycanlını qətlə yetirmələri Bakıda milli hissləri alovlandırdı. XX əsrin əvvəllərində istiqlalın ləzzətini dadan xalq bu dəfə müstəqillik arzularını reallaşdırmaq üçün tarixi bir fürsətin yarandığını hiss etdi. 1988-ci ildən başlayaraq Azərbaycanda milli istiqlal hərəkatı geniş vüsət aldı. Milyonlarla insanın toplaşdığı Azadlıq meydanında səslənən tələblərin mahiyyəti getdikcə dəyişərək müstəqil dövlət qurmaq ideyası milli düşüncəyə hakim kəsildi.

Hakimiyyətə gəlişi ilə xalqa sağlam ruh və özünüdərk gətirən ümummilli lider Heydər Əliyev sovet ideologiyasının sərt qadağalarına baxmayaraq, milli- mənəvi dəyərlərə, Azərbaycan elminin və mədəniyyətinin dirçəlişinə xüsusi önəm verdi. Bütün sahələrdə inkişaf və oyanış müşahidə olunmağa başladı. Azərbaycan əsl intibah və dirçəliş dövrünə qədəm qoydu. Məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə dünyanın müxtəlif ölkələrində təhsil alan milli ruhlu alimlər və ziyalılar ordusu yetişdi. Dahi şəxsiyyət Heydər Əliyevin respublikada yaratdığı bu mənəvi-psixoloji və iqtisadi baza təxminən 20 il sonra Sovet İttifaqı dağılmağa başlayanda xalqın dayağı oldu.

1988-ci ildə xalq hərəkatının alovlandığı bir vaxtda Azərbaycana rəhbərlik edən siyasi qüvvələr isə mövcud vəziyyəti qiymətləndirə bilmədilər. Xalqın maraqlarından daha çox imperiyanın maraqlarını düşünən bu adamların siyasi səbatsızlığından 20 Yanvar faciəsi baş verdi. Bir-birini əvəzləyən hakimiyyətlər xalqın dirçəlişini mütərəqqi səmtə yönəltmək iqtidarında deyildilər. Həmin o ağır məqamlarda yenə də ulu öndər Heydər Əliyev xalqın istiqlal ruhunu ölməyə qoymadı.

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi. Ümummilli lider Heydər Əliyevin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada muxtar respublikanın dövlət rəmzləri haqqında məsələ də müzakirə olundu. Xalq deputatlarının müzakirəsindən sonra üçrəngli bayrağın dövlət rəmzi kimi qəbulu ilə əlaqədar təklif irəli sürüldü. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının bərpa olunması barədə qərar çıxaran sessiya onun dövlət bayrağı kimi qəbul edilməsi ilə əlaqədar Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırdı. Beləliklə, milli dirçəlişdən milli tərəqqiyə doğru uzanan tarixi yolun başlanğıcı qoyuldu.

# İmran Xan: "Qarabağın Azərbaycana məxsus olduğunu hər kəs bilir"



"Bütün dünya Qarabağın Azərbaycana məxsus olduğunu tanıyır". SİA-nın məlumatına görə, bunu Pakistanın baş naziri İmran Xan bu ölkənin yerli televiziya kanalına verdiyi müsahibəsində deyib.

O, qeyd edib ki, Azərbaycan Silahlı Qüvvələri nümunəvi şücaət göstərib. Baş nazir Dağlıq Qarabağın mübahisəli ərazi olmadığını, bütün dünyanın Qarabağın Azərbaycana məxsus olduğunu tanıdığını, Azərbaycanlıların öz əzəli torpaqlarını geri qaytardığını bildirib.

# "Əl-Cəzirə" kanalı Azərbaycanın Kəlbəcər rayonundan olan ailə barədə reportaj yayımlayıb




"Əl-Cəzirə" kanalı Azərbaycanın Kəlbəcər rayonundan olan ailə barədə reportaj yayımlayıb. AZƏRTAC xəbər verir ki, kanalın çəkiliş qrupu ailənin qonağı olub, Kəlbəcərin işğaldan qurtulması ilə bağlı onların təəssüratlarını öyrənib.

Reportajda qeyd edilir ki, bu ailə Kəlbəcər rayonunun işğaldan azad olunmasına görə çox sevinir. Kəlbəcər rayonundan didərgin düşmüş Gülçöhrə Ramazanova hazırda ermənilərin orada törətdikləri əməllərə baxaraq əsəblərini cilovlaya bilmədiyini deyir. Qeyd edir ki, ermənilər Kəlbəcəri tərk edərkən oradakı evləri, məktəbləri yandırırlar. Bütün bunları kədər hissi ilə izlədiyini bildirən G.Ramazanova deyir: "Bizim bir vaxtlar yaşadığımız kənddəki bütün evlər indi ermənilər tərəfindən yandırılır. Çox pis oluram, axı bu, düzgün deyil. Axı onlar təmirli evlərdə məskunlaşmışdılar".

Reportajda qeyd edilir ki, ailənin digər üzvü Elşad 1990-cı illərin əvvəllərində Azərbaycan Ordusunda xidmət edirdi. O deyir ki, həmin vaxt insanlar Kəlbəcəri tərk etmək məcburiyyətində qalmışdılar. O, köç zamanı yüzlərlə insanın necə öldüyünü xatırlayır. On minlərlə insan, o cümlədən uşaqlar və qocalar Kəlbəcər rayonunu şaxtalı və qarlı havada tərk edərkən onlardan bir çoxunu don vurmuşdu.

Reportajda bildirilir ki, Azərbaycan tərəfi Ermənistanın Kəlbəcəri təhvil verməsi üçün təyin edilmiş müddəti 10 gün uzadıb. Müdafiə Nazirliyinin beynəlxalq hərbi əməkdaşlıq idarəsinin rəisi general-mayor Hüseyn Mahmudovun Ermənistanın üç rayonu Azərbaycana təhvil verməsi ilə bağlı fikirləri də reportajda yer alıb.

Reportajda, həmçinin qeyd edilir ki, Kəlbəcər sakinləri təxminən otuz il gözlədikdən sonra öz rayonlarına geri qayıtmaq niyyətindədirlər. Ancaq rayonda hələ minalardan təmizləmə əməliyyatları və infrastrukturun yenidən bərpası kimi bir çox işlər görüləcək.

# Sevinc Fətəliyeva: "Bu gün yalnız Paşinyan yox, Qərb dairələri də məsuliyyət daşıyırlar"



"Azərbaycan Ordusu tərəfindən məğlub edilmiş işğalçı Ermənistanda bu gün daxili vəziyyət çox gərgindir. Ölkədə hakimiyyətə qarşı etiraz aksiyaları davam edir. Nikol Paşinyan qurduğu diktatura rejiminin demokratikliyinə dair imitasiya imkanlarını itirib, ölkəsini fəlakətə məhkum etmiş rəhbər kimi onu ittiham edən bütün müxalifət nümayəndələrini həbsə atdırır, onlara təzyiqlər və təhdidlər olunur. Ermənistanda daxili gərginliyin yaranacağı labüd idi. Uzun illərdir ki, daxildə baş verənləri ölkə rəhbərliyi gizlətməyə çalışsa da, reallıq artıq özünü tamlığı ilə büruzə verdi. Dövlət başçısı ilə məmurların, hökumətin digər qurumlarının, vətəndaşların arasında olan qarşıdurmalar xalqın həyat tərzini, yaşam səviyyəsini aşağı salıb. Paşinyanın həyata keçirdiyi siyasət həm xalqı qane etmir, həm də ölkədə mövcud olan həyat tərzinin pisləşməsinə şərait yaratmışdır. Populist vədlər verərək hakimiyyətə gələn Paşinyan mövcud reallıqlardan uzaq hərəkətləri, vədləri və çıxışları ilə özünün sonunu yaxınlaşdırdı. Bugünədək onun bu istiqamətdə həyata keçirdiyi fəaliyyətdən hiss olunurduki, o, ətəşkəs rejimindən sui-istifadə etmiş və bununla da öz məqsədlərini həyata keçirməyə çalışmışdı. Paşinyan sələflərinin siyasətini davam etdirən təxribatçı və hərbi avantüra xarakterli addımları, ziddiyyətli və cəfəng fikirləri ilə siyasətdən uzaq olduğunu dəfələrlə sübuta yetirmiş, xalqın maraqlarından uzaq olduğunu təsdiqləmişdi. Bu gün Ermənistan dərin sosial-iqtisadi böhrandan xilas olmaq iqtidarında deyil. Bu da əhalidə hakimiyyətə qarşı inamsızlığı və etirazları gücləndirmişdir. Hər bir ölkənin daxili və xarici siyasətindəki uğur məhz həmin ölkənin dövlət başçısının fəaliyyəti ilə bağlıdır. Paşinyanın ölkəyə rəhbərliyi dövründə bütün beynəlxalq tədbirlərdə yalan danışdığının, siyasi riyakarlığının dəfələrlə hər kəs şahidi olub. Qərb dairələrinin uzun müddət 2018-ci ilin mayında Ermənistanda baş vermiş dövlət çevrilişini "demokratik inqilab", hakimiyyəti ələ keçirmiş Nikol Paşinyanı "demokratik lider" kimi təqdim etməsinə baxmayaraq, Ermənistanda bu gün demokratiyanın işartıları belə qalmayıb, ölkə kriminal şəxslərin, neofaşistlərin yuvasına çevrilib". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.

Sevinc Fətəliyeva bildirib ki, bu gün Ermənistanda baş verən hadisələr insanların ifadə azadlığı, azad toplaşma hüququ, hüquq-mühafizə orqanları tərəfindən güc tətbiq olunmaması və s. kimi demokratiyanı özündə əks etdirən dəyərlər ayaq altına salınıb. Əgər bu gün Ermənistanda baş verənlər Azərbaycanda olsaydı, indi Qərb ölkələrində bu barədə bəyanat verməyən heç bir insan hüquq təşkilatı qalmayacaqdı. Ermənistanda hamının gözü qarşısında müxalifətin əzilməsi və sıradan çıxarılması isə Qəribdə susqunluqla qarşılanır.Haqlı olaraq sual yaranır: Bu ikili standartların səbəbi nədir. Bu ədalətsizlik, selektiv münasibət nə vaxtacan davam edəcək?! Yaxın Şərqdə və digər ölkələrdə xalq və hakimiyyət arasında olan münasibətlərlə bağlı nümayişlər, aksiyalar olanda və xalqın iradəsi, mövqeyi nəzərə alınmayanda dərhal beynəlxalq qurumlar reaksiya verir, həmin ölkələrdə demokratiyanın bərqərar olunmasını və azadlıqların təminini tələb edir. Ancaq Ermənistanla bağlı heç bir bəyanat verilmir, oradakı vəziyyət təhlil olunmur, heç bir qınaq və irad bildirilmir.

"Prezident İlham Əliyevə feyk məlumatlar əsasında guya Azərbaycanda bir nəfərin sülh tələb etdiyinə görə həbs olunması barədə sual verənlər, ümumiyyətlə Qərb mediası Ermənistandakı kütləvi həbsləri, təqibləri görməzdən gəlir, heç nə baş verməmiş kimi davranır, Paşinyana heç bir sual ünvanlanmır" -deyən, millət vəkilinin sözlərinə görə, ölkəsinin ərazi bütövlüyünü bərpa etmək, Ermənistandan işğal etdiyi torpaqları geri qaytarmağı tələb etdiyi üçün illərdir Azərbaycan dövlətinə və onun rəhbərinə qarşı xarici mediada hədyanlar yazanlar, bunu sifariş edənlərin əsl kimlikləri, simaları bu gün ortadadır. Onlar işğalçı Ermənistanın xilası üçün açıq şəkildə, heç bir utanc hissi duymadan hər şey edirlər, Bərdə, Gəncə, Tərtər və digər Azərbaycan şəhərlərində mülki insanlara qarşı Ermənistanın müharibə cinayətlərindən bəhs etmək əvəzinə Azərbaycana və onun liderinə qarşı uydurmalarını davam etdirirlər. Bu gün bir sıra Qərb ölkələrinin, o cümlədən Fransanın, Kanadanın Ermənistana dəstək bəyanatları bu ölkələrin hakim dairələrinin həqiqi simalarını və mahiyyətini aydın əks etdirir. Azərbaycanı daim hədəf götürənlər, eyni zamanda, digər ölkələrdə insan hüquq və azadlıqlarının kobud şəkildə pozulmasına, siyasi məhbusların mövcudluğuna, vətəndaş cəmiyyətinə, mediaya qarşı basqılara göz yumur. Ermənistanın təcavüzkar siyasətinə ciddi reaksiya verilmir. Bu isə Azərbaycana qarşı tətbiq edilən ikili standartların əyani nümunəsidir.

"Heç kim unutmayıb ki, Paşinyanın hakimiyyətinin hələ yeddinci ayında siyasi motivlərlə həbsə atılmış Haynews.am saytının məsul əməkdaşı Mger Yegiazaryan aclıq aksiyası keçirərək həbsxanada vəfat etdi. Qərb dairələri Paşinyan iqtidarının bu cinayətinə də göz yumdu. Hakimiyyətdə olduğu cəmi 2 il ərzində "korrupsiyaya qarşı mübarizə" adı altında siyasi rəqibləri ilə haqq-hesab çürütməyə başlayan, keçmiş prezidentlərdən birini həbs edən, digərinə qarşı cinayət işi qaldıran, aparıcı müxalifət partiyasının sədri, deputat Sarukyanı bu gün də həbsdə saxlayan Paşinyanın bu davranışı yenə Qərb dairələrini "narahat etmədi". Bu cəzasızlıq daha böyük cinayətlərə yol açıb və Paşinyan cinayətləri sırasına hərbi cinayətləri də əlavə edib - Azərbaycana qarşı müharibəyə başlayıb. Müharibədə sarsıdıcı məğlubiyyətə uğramış Paşinyan iqtidarı ölkə daxilində baş qaldıran narazılıq və xalq qəzəbini söndürmək üçün amansız repressiyalara başlayıb. Müxalifət partiyalarının hökumətin fəaliyyəti ilə bağlı tənqidləri cəmiyyətə "milli xəyanət" kimi təqdim olunur. Ermənistanda Nikol Paşinyanın istefası tələbi ilə keçirilən kütləvi aksiyalarda 10 müxalifət lideri həbs edilib. Müxalifətçilər hərbi vəziyyət zamanı mitinq təşkil etmək və dövlət sirrini açıqlamaqda təqsirləndirilir. Ermənistanda dövlət orqanlarının və vəzifəli şəxslərin hərəkətlərini tənqid edən, təkzib edən, şübhə altına alan və ya başqa bir şəkildə dəyərdən salan məlumatların dərc edilməsi və yayımlanması qadağan edilib. Ölkədə hakimiyyəti, hətta bələdiyyələri belə tənqidə görə 1200 avrodan başlayan cərimələr qanuniləşdirilib. Buna görə sosial şəbəkə istifadəçiləri və jurnalistlər açıq şəkildə hakimiyyətin özbaşınalığı və cinayətlərini tənqid edə bilmirlər. Ermənistanda vətəndaşların dinc etiraz aksiyalarını qeyri-mümkün edən yüksək cərimələr tətbiq olunur. Bütün bunların fonunda qeyd etməklazımdır ki, bu gün regionda yaşanmış müharibə və dağıntılara görə yalnız Paşinyan yox, onu hakimiyyətə gətirən, bütün cinayətlərinə göz yuman Qərb dairələri və təşkilatları da məsuliyyət daşıyırlar. "-deyə, S.Fətəliyeva vurğulayıb.

# 30 illik mifi dağıdan 44 günlük savaş



Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Milli Ordumuz tərəfindən aparılan 44 günlük müharibə öz uğurlu nəticəsini verib. Bu şanlı Vətən savaşının sonunda Ermənistan tərəfindən işğal edilmiş 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər düşməndən azad olunub. Hər bir kəndin, şəhər və qəsəbəmizin işğaldan azad edilməsi xəbərini Ali Baş Komandanın dilindən eşidirdik, Hər gün bu xəbərləri səbirsizliklə gözləyirdik. Açıqlanan şad xəbərlərin arxasında hansı əziyyətlərin, necə böyük zəhmət və mübarizənin durduğu, bu qalibiyyətin nələrin hesabına başa gəlməsinin hər kəs fərqində idi. Düşmənin uzun illər işğal altında saxladığı, müqəddəs ruhlarımızın uyuduğu torpaq uğrunda aparılan, sonu qələbə ilə bitən bu mübarizə hər bir azərbaycanlını hədsiz dərəcədə sevindirib. Rəşadətli Ordumuzun apardığı hərbi əməliyyatlar zamanı düşmənə məxsus olan texnikaların və canlı qüvvənin məhv edilməsi ilə bağlı Müdafiə Nazirliyinin yaydığı rəsmi kadrlar hər bir vətəndaşımız tərəfindən böyük qürur hissi ilə izlənilib. Düşmənin itkilərinin dəyəri artıq 3 milyardı keçib, davam edən hərbi əməliyyatlar fonunda Ermənistan ordusu tam sıradan çıxarılıb. Dəfələrlə döyüş zamanı erməni hərbi qulluqçuları döyüşməkdən imtina edərək geri çəkiliblər...

Müharibənin ilk günlərindən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin nümayiş etdirdiyi qətiyyətli mövqe, beynəlxalq mediaya verilən sərrast və dürüst açıqlamalar, Ordumuzun göstərdiyi şücaət, üstün döyüş qabiliyyəti artıq erməni xalqının iradəsini sındırmışdı...

Bu gün Ermənilərin ayrı-ayrı zümrələrindən olan şəxslərin sosial şəbəkələrdə Azərbaycan vətəndaşı olmaq istəklərini dilə gətirmələri təsadüfi deyil. Bunun real səbəbi odur ki, onlar ölkə başçımızın timsalında ilk dəfə əsl lider, müharibə meydanında ilk dəfə qalib ordu gördülər. Çünki, döyüş əməliyyatları başlayan andan deyilmişdi ki, bu müharibə həm də Ermənistanın cinayətkar siyasi rəhbərliyinin sonu olacaq... Həmin siyasi rəhbərlik isə öz qəddar və vandal siyasətinə, barbar əməllərinə davam etməkdə idi. O qədər çıxılmaz vəziyyətə düşdülər ki, hətta qadınlardan və qocalardan ibarət hərbi qruplar da təşkil etdilər. Bu da onlara kömək edə bilmədi, yenə döyüşdə olan erməni əhalisi savaşmaqdan imtina edirdi...

Noyabrın 8-də qəhrəman əsgər və zabitlərimiz üzbəüz mövqelərdə, təkbətək döyüşərək Qarabağımızın göz bəbəyi olan Şuşa şəhərini işğaldan azad etdi. Ardınca bir günün içində 70-dən artıq kənd, 8 strateji yüksəklik düşmən tapdağından təmizləndi, bu da düşməni mat vəziyyətinə saldı... Savaşın başladığı ilk zamanlar Ermənistanın baş naziri Nikol Paşinyan uzun müddət müharibənin dayandırılması məqsədilə xarici dövlətlərə yalvardı. Dövlət başçımızın dəmir iradəsi, Azərbaycan xalqının öz liderinə qüvvətli inamı, ordumuzun ruh yüksəkliyini görəndən, üstəgəl də Şuşanın azad edilməsindən sonra çıxılmazlıq labirintinə düşdü. Xain Ermənistanın və onun xain baş nazirinin razılaşma kapitulyasiyasını imzalamaqdan başqa yolu qalmadı...

Artıq 10 noyabr - xalqımız üçün Zəfər Bayramıdır, Qələbə günüdür. Biz qalib ölkə olaraq, Ermənistana kapitulyasiyanı imzalatmağı bacardıq. Paşinyan məğlubiyyətdən yaxa qurtarmaq məqsədilə bu imzanı atsa da, ölkəsində ona qarşı etirazlar sürətlə artıb.

Ermənistanın siyasi rəhbərliyi bütün xəbərdarlıqlara baxmayaraq, heç bir halda öz şövinist siyasətindən əl çəkmədi. Bu da onun üçün ağır nəticəsi - həm döyüş meydanında məğlub oldu, həm də ki, onsuz da çətin iqtisadi durumda olan ölkəni bu qədər maliyyə itkiləri ilə lap pis vəziyyətə saldı. Bu maliyyə böhranından çıxmaq üçün düşmən ölkəyə azı bir neçə onillik lazım olacaq. Eyni zamanda, Paşinyanın xalqının gözündə olmayan etibarı tamamilə yerlə bir oldu.

Onu da bildirim ki, Paşinyana qarşı etirazlar yalnız kapitulyasiyanı imzaladıqdan sonra başlamamışdı. Daha əvvəl də ölkədə Baş nazirin müxalifət nümayəndələrini, jurnalistləri həbs etdirməsi, onların ölümünə səbəb olma halları ilə əlaqədar kifayət qədər narazılıqlar mövcud idi... Düşmənə qarşı sülhə məcburetmə tədbirləri çərçivəsində Ermənistan kapitulyasiyanı imzalamaqla, Kəlbəcər, Laçın və Ağdam rayonlarını heç bir qan tökülmədən qaytarmağı öz üzərinə götürdü. Bu o deməkdir ki, onlar yalnız döyüş meydanında deyil, diplomatik müstəvidə də məğlub oldular.

Sazişin şərtlərinə baxsaq görürük ki, ordumuzun işğaldan azad etdiyi və razılaşma ilə boşaldılan bütün ərazilərdə nəzarət bizdə qalır, habelə həmin yerlər Azərbaycan Respublikasının tərkibinə daxil olur. Bu isə o deməkdir ki, üç rəngli bayrağımız yenidən həmin rayon və şəhərlərdə sonsuzadək dalğalanacaqdır...

...Ermənistanın bu müharibədə itkiləri yalnız çoxsaylı döyüş texnikasının və canlı qüvvəsinin məhv edilməsindən ibarət olmayıb. Azərbaycanın Dövlət-Ordu-Xalq Birliyinin gücü, savaş meydanında qəhrəmanlıq dastanı yazan oğul və qızlarının şücaəti düşmənin dünyada 30 ildə yaratmağa cəhd etdiyi mifi 44 gündə alt-üst elədi. Danışıqlar prosesində istədikləri şərtlərin hər birini sıfırladı...

Biz artıq Qalib Azərbaycanın vətəndaşlarıyıq! Müharibədə güc göstərən Qalib Ordunun sahibləriyik! Bununla nə qədər fəxr etsək azdır. Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!

***Adil Əliyev,***
***Milli Məclisin sədr müavini***

# Paşinyan: Qarabağla bağlı razılaşma dəyişdirilə bilməz



Ermənistanın baş naziri Nikol Paşinyan Qarabağla bağlı razılaşmaların dəyişdirilməsinin real perspektivini düşünmür. O, 9 noyabr tarixli üçtərəfli bəyanatda yer alan maddələrin yenidən nəzərdən keçirilməməsi lazım olduğunu söyləyib. "Müqaviləni dəyişdirmək cəhdi, hərbi vəziyyətin dəyişməsi deməkdir. Bu gün real deyil. Danışıqlar aparmaq lazımdır, çünki sənəddə şərh tələb edən müddəalar var və biz ən yaxşı təklifləri həyata keçirməyə çalışacağıq",- İnterfaks Paşinyandan sitat gətirir.

Baş nazir Qarabağda baş verənlərə görə şəxsən məsuliyyət daşıdığını da vurğuladı. Eyni zamanda, qeyd edib ki, "müəyyən bir mərhələdə danışıqlar prosesi geri dönmə nöqtəsindən keçdi, çünki ərazilərin qeyd-şərtsiz verilməsinə dair beynəlxalq konsensus yaradıldı. Bu, İrəvana yaraşmayan haldır, ancaq erməni tərəfi şərtlərində israr edə bilmədi- deyə o bildirib.

***Elçin Bayramlı***

# Bəhruz Quliyev: "Paşinyan təqribən 15 minə yaxın erməni hərbçisinin məhv edildiyini niyə gizlədir?"



"Ermənistanın hərbi-siyasi rəhbərliyi indiyədək imzalanmış üç humanitar atəşkəsin heç bir qərarına əməl etməyib. Paşinyan hakimiyyəti cəbhədəki biabırçı məğlubiyyətin ölkədə sosial partlayış yaradacağından ehtiyatlanaraq erməni hərbçilərinin meyitlərini qəbul etmək istəmədi və buna görə də humanitar atəşkəsi pozmaq yolunu tutdu". Bunu SİA-ya SƏS Media Qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev deyib.

Siyasi ekspertin sözlərinə görə, ermənilərə nə əsirləri, nə də meyitləri lazımdır: "Onlar bilirlər ki, Qızıl Xaç Komitəsi vasitəsilə çox sayda meyitin Ermənistana təhvil verilməsi oradakı əsgər ailələrini ayağa qaldıracaq və etirazlara səbəb olacaq. Bundan qorxan erməni hərbi-siyasi rəhbərliyi beynəlxalq qanunvericiliyin tələbinə məhəl qoymayaraq, humanitar atəşkəs rejimini pozdu. Ermənistan öz əsgərlərinin meyitlərini döyüş meydanından yığmaq istəmir. Çünki döyüş meydanında qalan erməni əsgər meyitlərinin sayı hədsiz dərəcədə çoxdur. O meyitlər Ermənistana gedəndə, ailələrinə təhvil veriləndə nə baş verəcək? Ermənistan hakimiyyətinin itgi ilə bağlı verdiyi yalan məlumatlar açılacaq və əsil həqiqətlər üzə çıxacaq. Ermənistanın hərbi-siyasi rəhbərliyi həlak olmuş əsgərlərin ailələrinin reaksiyasından qorxduğu üçün cəsədlərin mübadiləsinə razılıq vermədi. İndiki vəziyyətdə Paşinyanın meyitlərə sahib çıxmaması mümkünsüzdür və əsil reallığı isə erməni xalqı qəzəblə gözləyir".

B.Quliyev əlavə edib ki, Paşinyan hələ də təqribən 15 minə yaxın erməni hərbçisinin məhv edildiyi barədə məlumatı gizlədir: "Hətta bu məlumatları nəinki dünyanın aparıcı, nüfuzlu KİV-ləri, eləcə də dünyanın hərbi ekspertləri də etiraf edirlər. Yerevan dəfn etdiyi və şəxsiyyəti təsdiqlənmiş əsgərlərinin adlarını açıqlayır. Ancaq bunların sayının daha çox olduğu sirr deyil. Çünki döyüş meydanlarında və işğaldan azad edilən Azərbaycan torpaqlarında erməni hərbçilərinin xeyli sayda cəsədləri qalıb".

Xatırladaq ki, artıq Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin son günlərdə yaydığı məlumatında bildirilib ki, Azərbaycanın Respublikasının Dağlıq Qarabağ bölgəsində dislokasiya olunan Rusiya sülhməramlı qüvvələrinin vasitəçiliyi və iştirakı ilə Şuşa şəhəri ətrafındakı döyüş meydanında həlak olan hərbi qulluqçuların bir neçəsinin cəsədlərinin toplanılması həyata keçirilib. Bu humanitar aksiya çərçivəsində Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularının cəsədləri toplanaraq Ermənistan tərəfinə təhvil verilib. Həmçinin, aksiya çərçivəsində Şuşa şəhəri ətrafında gedən döyüşlərdə şəhid olan Azərbaycan Ordusunun altı hərbi qulluqçusunun cəsədi təhvil alınıb. Humanitar aksiya Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin 10 noyabr 2020-ci il tarixli Bəyanatının səkkizinci bəndinə uyğun olaraq həyata keçirilib.

# Azərbaycana Türkiyə hərbi qüvvələrinin göndərilməsini dəstəkləyən sənədin mətni



"Dost və qardaş ölkə Azərbaycanın işğal altındakı torpaqlarını azad etmək üçün apardığı mübarizə illərdir davam edir. Ermənistan 27 sentyabr 2020-ci il tarixində Dağlıq Qarabağda cəbhə xətti boyu hərbi hədəflərə və mülki əhaliyə hücumlarına cavab olaraq Azərbaycan özünümüdafiə hüququndan istifadə edərək əks-həmlə əməliyyatı başlayıb və nəticədə işğal altındakı torpaqlarının azad edilməsi istiqamətində əhəmiyyətli qələbə qazanıb. Türkiyə beynəlxalq hüquq və suverenlik haqları çərçivəsində Azərbaycanın ərazi bütövlüyü də daxil olmaqla, bu haqlarını müdafiə edə bilməsi üçün prosesindən əvvəlindən etibarən ona dəstək verib. Nəticədə Azərbaycanın əks-həmlə əməliyyatında əldə etdiyi irəliləyiş meydanda yeni bir şərait yaradıb.

Azərbaycan, Rusiya və Ermənistanın əldə etdikləri razılaşmaya əsasən, 10 noyabr 2020-ci il tarixində saat 00.00-dan etibarən bölgədə atəşkəs elan edilib və işğal altındakı bəzi bölgələrin Azərbaycana qaytarılmasını nəzərdə tutan təqvim elan olunub. Əldə edilən razılaşmaya əsasən, atəşkəsə əməl edilib-edilməməsinin monitorinqini aparmaq məqsədilə işğaldan azad edilən Azərbaycan torpaqlarında Birgə Mərkəz yaradılacaq. Azərbaycanın tələbi əsasında Mərkəzdə Türkiyə və Rusiyanın müştərək iştirakı qərara alınıb.

Azərbaycanın müəyyənləşdirəcəyi yerdə Türkiyənin Rusiya ilə birlikdə quracağı Birgə Mərkəzdə və bu Mərkəzin işində Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətinin və ehtiyac olacağı təqdirdə Türkiyədən olan mülki şəxslərin xidmət aparmasının, 16 avqust 2010-cu il tarixində imzalanan "Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında Strateji Əməkdaşlıq və Qarşılıqlı Yardım Sazişi"nə əsasən ölkəmizin öhdəliyinə uyğundur, bu, eyni zamanda Azərbaycanın ərazi bütövlüyünü rəsmi olaraq tanıyan beynəlxalq hüquq, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qətnamələri və ATƏT-in prinsipləri ilə də uyğunluq təşkil edir, bölgə xalqlarının sabitliyi və rifahının xeyrinədir, ayrıca milli maraqlarımız baxımından lazımlıdır.

Bu mülahizələrlə "Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında Strateji Əməkdaşlıq və Qarşılıqlı Yardım Sazişi"nin şərtlərindən irəli gələn öhdəliyimizi yerinə yetirmək, atəşkəsin təsis edilməsi və pozulmasının qarşısının alınması, bölgədə sülh və sabitliyin əldə edilməsi məqsədilə Türkiyənin yüksək mənfəətlərini təsirli şəkildə qorumaq və müdafiə etmək üzrə şəxsi heyətin tərkibi, xidmət müddətinin Prezident tərəfindən təyin ediləcəyi, Birgə Mərkəzin xidmətlərinin icrası istiqamətində Türkiyə Silahlı Qüvvələrinin xarici ölkələrə göndərilməsi, bu qüvvələrin Prezidentin müəyyən edəcəyi əsaslara görə istifadə edilməsi ilə risk və təhdidlərin aradan qaldırılması üçün lazımi tədbirin görülməsi və bunlara imkan verəcək tənzimləmələrin Prezident tərəfindən müəyyənləşdiriləcək əsaslara görə aparılması üçün Konstitusiyanın 92-ci maddəsinə əsasən bir il müddətində icazə verilməsinin lazım olduğunu sizin diqqətinizə çatdırıram".

***Aysel Məmmədova***

# Ən çətin anların sınağından çıxan QARDAŞLIQ!

Bəli, bu dünyada analoqu olmayan qardaşlığın, Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" tezisinə əsaslanan reallığın təcəssümüdür. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya səfərləri çərçivəsində səsləndirilən fikirlər və imzalanan çox sayda sənədlər bir daha dünyaya nümayiş etdirir ki, Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır və böyük geosiyasi və geoiqtisadi potensiala malik bu iki ölkənin strateji əməkdaşlığı regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə, habelə bölgədə iqtisadi inkişafın daha da gücləndirilməsinə yönəlmişdir. Sözsüz ki, bu danılmaz faktordur ki, Azərbaycan ilə Türkiyə arasında əlaqələrin böyük tarixi var. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr. Ən əsas amil isə ən çətin anlarda bir-birinin yanında olmaq. Qeyd edək ki, Türkiyə və Azərbaycan öz tarixlərinin ən mürəkkəb dövrlərində bir-birinə dəstək olduqlarını nümayiş etdirmişlər. Belə ki, 1918-ci ildə Nuru Paşanın komandanlığı ilə Türk Qafqaz İslam Ordusunun uzun mübarizələr və müharibələr nəticəsində Bakını xilas etməsi Azərbaycan üçün önəmli dönüş nöqtəsi idi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dediyi kimi: "Türk ordusunun Azərbaycana, Bakıya gəlməsi, Azərbaycanı daşnakların təcavüzündən xilas etməsi hər bir azərbaycanlının qəlbində yaşayır. Azərbaycan xalqı həmin ağır dövrdə türk xalqının ona göstərdiyi köməyi heç vaxt unutmayacaqdır". Anadoluda Qazi Mustafa Kamal Atatürkün öndərliyi ilə aparılan milli mücadiləyə azərbaycanlılar maddi və mənəvi yardım göstərmişlər.

Bu gün isə Ermənistanın təcavüzkar siyasətinə qarşı mübarizəsində Türkiyə qardaş dövlətin Azərbaycanla həm cəbhədə, həm də diplomatik səviyyədə mübarizədə yanında olması bu qardaşlığın daha möhkəm olduğunun göstəricisidir.

### Rəcəb Tayyib Ərdoğan: "Bəzi amerikalılar İlham qardaşıma zəng edib deyir: "Biz sizin yanınızda kimin yer aldığını bilirik, Ərdoğan var, Türkiyə var"

Bəli, hər bir vaxt belə olub, hər iki dövlət başçıları bu qardaşlığı, bu birliyi bütün sahələrdə göstərib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan hakim Ədalət və İnkişaf Partiyasının (AKP) Malatya vilayətində keçirilən toplantısında çıxışında bildirib: "Bəzi amerikalılar İlham qardaşıma zəng edib deyir: "Biz sizin yanınızda kimin yer aldığını bilirik, Ərdoğan var, Türkiyə var. Biz Türkiyəyə də lazım gələrsə, sanksiya tətbiq edərik. Sən kiminlə oynadığının fərqində deyilsən. Sanksiya tətbiq etmək istəyirsənsə, et, gecikdirmə. "F-35" üçün addım atdıq, bizi təhdid etdiniz. "S-400"ləri Rusiyaya geri göndərin" dediniz. Biz qəbilə dövləti deyilik. Biz Türkiyəyik, Türkiyə!

Dünyanı yaşanmaz hala gətirən qüvvələr oyunlarını pozduğumuza, gerçək üzlərini ortaya çıxardığımıza görə bizi hədəf taxtasına qoyublar. Qoysunlar, dayanmaq olmaz, yola davam!".

### Prezident İlham Əliyev: "Əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın bu toqquşmaların ilk saatlarında verdiyi dəstək sabitliyi qorudu"

Prezidenti İlham Əliyev Türkiyənin "Haber Türk" televiziya kanalına müsahibəsində Azərbaycanın ən çətin günündə Türkiyə dövlətinin misilsiz dəstəyinin olduğunu deyərək bildirib ki, bu iş bitsin, ərazi bötgvlüyü bərpa edilsin qardaş dövlətimiz arasında yeni dövr başlayacaq: "Qoy, bunu həll edək, bu iş bitsin, ərazi bütövlüyümüz bərpa edilsin, ondan sonra Azərbaycanın yeni dövrü başlanacaq, bölgənin yeni dövrü başlanacaq, güclər nisbəti dəyişəcək və hesab edirəm ki, Türkiyə və Azərbaycanın gücü daha da möhkəm olacaq".



"Bu gün Türkiyə bölgədə və yeni coğrafiyada çox önəmli sabitləşdirici rol oynayır. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın bu toqquşmaların ilk saatlarında verdiyi dəstək sabitliyi qorudu",- deyən Prezident İlham Əliyev onu da vurğulayıb ki, çoxları bunu anlamırlar: "Bəziləri bəlkə bunu anlamırlar. Əgər o sözlər olmasaydı, əgər mənim qardaşım deməsəydi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır, bəlkə də burada vəziyyət qarışardı. Bəlkə də başqa kimsə burada, necə deyərlər, bulanıq suda balıq tutmağa çalışacaqdı. Ona görə bundan sonra bu bölgədə biz yeni bir strateji mənzərə, strateji baxış yaratmalıyıq. Artıq bu barədə düşünməyə başlayırıq, ancaq hadisələri qabaqlamaq istəmirik".

Budur, çətin günün sınağından çıxmaq. Budur - bir millət, iki dövlət münasibəti.

### Rəcəb Tayyib Ərdoğan: "Ermənilərin qədim Azərbaycan torpağı Qarabağın işğalına qarşı kor, kar, lal qalanların bu gün sərgilədikləri duruş ikiüzlülükdür"

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə Böyük Millət Məclisinin (TBMM) iclasında Azərbaycan torpaqlarına Ermənistanın təcavüzü barədə danışarkən bildirib ki, ermənilərin qədim Azərbaycan torpağı Qarabağın işğalına qarşı kor, kar, lal qalanların bu gün sərgilədikləri duruş ikiüzlülükdür: "İşğalçılara səssiz qalan, vətənini qoruyanı isə suçlayanların sözünün bizim üçün heç bir dəyəri yoxdur. Bu alçaq oyun pozulur. Qalıcı sülhün yolu Ermənistanın işğal etdiyi hər qarış Azərbaycan torpaqlarından geri çəkilməsindən keçir".

Türkiyə Prezidenti bir daha Azərbaycanın yanında olduqlarını vurğulayıb: "Bunu burada bir daha bildirmək istərdim. Türkiyə bu günə qədər olduğu kimi, bundan sonra da Azərbaycanın yanında olacaq. TBMM olaraq Azərbaycanın yanında olduğumuz bir daha bildirildi. Ermənistan işğal etdiyi ərazilərdən çıxarılmalıdır"".

Bəli, bu gün Türkiyə kimi bir güclü dövlətin Azərbacanla bir olması çox dövlətlərin qısqanclığına səbəb olub. Ancaq bir məqamı anlamaq lazımdır ki, Azərbaycan-Türkiyə illərin sınağından çıxmış, bu birlik möhkəmlənmişdir. Bu birliyi isə heç bir qüvvə sındıra bilməz!

### Prezident İlham Əliyev: "Haqq işimizi davam etdiririk, Türkiyə kimi qardaş ölkə yanımızdadır, hər zaman birlikdəyik"

Prezident İlham Əliyev oktyabrın 22-də Türkiyə Respublikasının Baş Ombudsmanı Şeraf Malkoçu qəbul edərək qonağı salamlayıb və bildirib ki, indiki şəraitdə sizin Azərbaycanda olmağınızın xüsusi mənası var: "Bildiyiniz kimi, Ermənistan Azərbaycana qarşı növbəti təcavüz aktı törədib, növbəti terror aktı törədib. Həm bizim mülki vətəndaşlara, həm də hərbçilərimizə qarşı hərbi cinayət törədib. Bilirəm ki, siz səfər çərçivəsində Gəncə şəhərinə gedəcəksiniz. Orada özünüz görəcəksiniz ki, biz hansı vəhşi düşmənlə üz-üzəyik. Onlar döyüş meydanında bizim qarşımızda duruş gətirə bilmirlər və çalışırlar ki, bu acı məğlubiyyətin əvəzini dinc insanlardan çıxsınlar. Gəncəyə iki namərd hücum və Gəncə şəhərinin ballistik raketlərlə vurulması hərbi cinayətdir. Ermənistan rəhbərliyi bu cinayətə görə cavab verəcək. Bu, qəsdən törədilmiş cinayətdir. Məhz mülki əhalinin yaşadığı yerləri məqsədyönlü şəkildə atəşə tutublar. Bildiyiniz kimi, çoxlu itkilərimiz var, yaralılarımız var, o cümlədən uşaqlar, qadınlar, qocalar. Bu, bir daha erməni faşizminin yırtıcı mahiyyətini göstərir. Bu, bir daha göstərir ki, biz erməni faşizminin belini qırmaqla bölgəmizi böyük bəladan, böyük faciədən xilas etmiş oluruq".

### Qələbə Zəfərində - İki qardaş birliyi - İlham Əliyev-Rəcəb Tayyib Ərdoğan

Hər zaman olduğu kimi, bu gün də Azərbaycanın Qələbə Zəfərində də "Bir millət, iki dövlət", iki qardaş liderlər qələbə münasibətilə bir-birini təbrik etdi. Noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı zamanı dövlət başçıları Qarabağ müharibəsində Azərbaycanın qazandığı parlaq qələbə münasibətilə bir-birini təbrik ediblər. Prezident İlham Əliyev müharibə dövründə Türkiyə Prezidenti və Türkiyə xalqının Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstəyə görə bir daha minnətdarlığını bildirib. Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidentinin ölkəsinin dəstəyinə verdiyi yüksək qiymətə görə təşəkkür edib. Azərbaycan və Türkiyə prezidentləri dost və qardaş ölkələrimiz və xalqlarımızın bundan sonra da bir-birinin yanında olacağını bildiriblər.

### Prezident İlham Əliyev: "Biz də bu qədər möhtəşəm dostumuz olduğu üçün qürurlu və şadıq"

"Azərbaycan işğal edilmiş Dağlıq Qarabağda hərbi əməliyyatlarını davam etdirdiyi vaxt beynəxalq media bir tərəfdən informasiya manipulyasiyası etməyə, digər yandan da Türkiyəni günahlandırmağa çalışır. Bunlardan biri də ABŞ-ın "Fox News" kanalı oldu. Prezident İlham Əliyevdən müsahibə alan "Fox News" Türkiyəni günahlandırmağa cəhd etdi, amma Azərbaycan prezidenti buna imkan vermədi". "Haber 7" saytı yazır ki, 30 illik işğaldan sonra öz torpaqlarını azad etməyə başlayan Azərbaycan beynəlxalq media qurumlarının hədəfindədir. Bununla belə, sayt dünya miqyasında Azərbaycana verilən dəstəyin getdikcə artdığına, dünya mediasının Azərbaycanın haqq səsini eşitdirmək üçün Bakıya mikrofon uzatmağa başladığına diqqət çəkib.

"Haber 7" Azərbaycan Prezidenti İlham Əliyevin "Fox News"-a müsahibəsini "Möhtəşəm dostluğumuz üçün qürur duyuruq" başlığı ilə manşetdə yer verib. Azərbaycan liderinə Türkiyəni haqsız suçlamalar qarşısında müdafiə etdiyinə görə təşəkkür edilib. Türk saytı Prezident İlham Əliyevin amerikalı jurnalistin təxribatçı suallarına peşəkarlıqla cavab verdiyini bildirib: "Azərbaycanın haqlı mübarizəsini bir daha dünyaya eşitdirən Əliyev müxbirin təxribatçı suallarına verdiyi cavablarla gündəmə gəlib. Bölgədə aparılan əməliyyatlar ətrafında informasiya çirkabı yaratmağa çalışan "Fox News"un müxbiri Türkiyəni Azərbaycanla birgə əməliyyatlarda iştirak etməkdə ittiham etdi. Anti-Türkiyə fikirlərə keçid etməyə qoymayan Azərbaycan Prezidenti İlham Əliyev Amerika kanalına siyasət dərsi verdi. Azərbaycan lideri Türkiyənin Dğlıq Qarabağda problem yaratdığını deyən "Fox News" müxbirinin iddiasını kəskin şəkildə rədd etdi: "Türkiyə bizə siyasi dəstək verir, onlar bizim dostumuz və müttəfiqimizdir. Biz də bu qədər möhtəşəm dostumuz olduğu üçün qürurlu və şadıq".

### Rəcəb Tayyib Ərdoğan: "Türkiyə olaraq bütün qəlbimizlə bu haqq davasında sonadək Azərbaycanın yanındayıq"

Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə - Afrika İqtisadiyyat və İş Forumunun açılış mərasimində bildirib: "30 ilə yaxındır ki, Dağlıq Qarabağ münaqişəsi həll olunmamış qalır. Bu gün Azərbaycan öz torpaqlarını Ermənistanın işğalından azad etmək üçün əks-hücum əməliyyatları aparır. Türkiyə olaraq bütün qəlbimizlə bu haqq davasında sonadək Azərbaycanın yanındayıq. Afrika ölkələri də daxil olmaqla, haqqı dəstəkləyən bütün dövlətləri Azərbaycanın yanında olmağa çağırıram".

**RƏFİQƏ KAMALQIZI**

# Türkiyə: Qafqaz regionunda və dünyada güc mərkəzi rolunda

### Ortada isə daha bir reallıq - "Bir millət, iki dövlət" sarsılmaz, əbədi prinsipi dayanmaqdadır

Azərbaycanın son illər ərzində regionda və beynəlxalq aləmdə güclü və qüdrətli dövlətə çevrilməsi əlbəttə ki, qardaş Türkiyə dövlətinin də maraqlarına cavab verib və eyni zamanda, Türkiyənin Qafqaz regionunda və dünyadakı nüfuzunun yüksək səviyyədəki mövcudluğu Azərbaycanın bütün maraqlarına cavab verməklə yanaşı, qardaş ölkə ilə bütün istiqamətlərdəki əməkdaşlıq faktoruna önəmli töhfələrini verib.

Xüsusilə, işğalçı Ermənistanın istər bu ilin iyulunda Tovuzdakı dövlət sərhədimizdə, istərsə də sentyabrın 27-dən başlayaraq, Qarabağdakı təmas xətlərində törətdiyi silahlı təxribatların ardınca Azərbaycanın yanında dayanan ölkələrdən biri və birincisi, məhz Türkiyə dövləti oldu. Ermənistanın rəsmi dövləti siyasətinə çevrilmiş terror amili özünü daha çox qabartdıqca, qardaş ölkənin bütün rəhbər şəxsləri başda prezident Rəcəb Tayyib Ərdoğan olmaqla sərt bəyanatlarla çıxış etdilər, o cümlədən, milli müdafiə naziri, xarici işlər naziri, parlament sədri və s. yüksək ranqlı siyasi xadimləri Bakıya, Azərbaycanın dövlət rəsmiləri isə Ankaraya səfərlər etdilər.

### Türkiyə sona qədər, birmənalı olaraq özünün mənəvi və s. dəstəyini ölkəmizdən əsirgəmədi

Bu gerçəklik həm də onu sübut etdi ki, Azərbaycan işğal altındakı ərazilərini azad etdiyi zaman, o cümlədən, BMT-ni və s. nüfuzlu beynəlxalq qurumların qətnamə və qərarlarını ədalətli mübarizə yolu ilə həll etdiyi bir vaxtda özünü tək görmədi - Türkiyə sona qədər, birmənalı olaraq özünün mənəvi və s. dəstəyini ölkəmizdən əsirgəmədi.



Məhz bu xüsusdan analiz edərsək, həm də belə bir nəticəyə gəlmək olar ki, əslində, Azərbaycanın Qarabağın azadlığı uğrunda apardığı və artıq həm hərbi, həm də diplomatik cəhətdən qalib kimi ayrıldığı müharibədə Türkiyənin regional təsir gücü özünü daha aşkar şəkildə sübuta yetirmiş oldu. Beləliklə, nəticələri araşdırarkən sual yaranır ki, bəs buradan daha hansı nəticələrə gəlmək olar?

Məlumdur ki, Türkiyə Cənubi Qafqazda öz mövqelərini möhkəmləndirib. Söz yox ki, qardaş ölkənin səmərəli siyasəti daha aydın görünür. Məhz Dağlıq Qarabağ münaqişəsi ətrafında qardaş ölkə yüksək nüfuzunu daha da artırdı, o cümlədən mühüm tərəfə çevrildi.

### Azərbaycanın haqlı mübarizəsini apardığı Dağlıq Qarabağda Türkiyə mükəmməl siyasətə imza atmış oldu

Bu arada daha bir mühüm nüans budur ki, Türkiyə Osmanlı imperiyası zamanı təsir etdiyi ərazilərə də öz nüfuzunu göstərməkdədir. Bu, öz yerində...

Lakin dünyanın digər bölgələrində, habelə Azərbaycanın haqlı mübarizəsini apardığı Dağlıq Qarabağda Türkiyə mükəmməl siyasətə imza atmış oldu. Daha dəqiq desək, Türkiyə son onillikdə növbəti dəfə özünü regional güc mərkəzinə çevirdiyini sübuta yetirdi. Həmçinin, liderliyini praktik şəkildə isbatlamış oldu.

Bu arada, Rusiyanın Müasir Türkiyənin öyrənilməsi mərkəzinin direktoru Yuri Mavaşev də bənzər fikirlərini bölüşüb. SİA xəbər verir ki, bu barədə RBK-ya münasibətini açıqlayan rusiyalı ekspert bildirib ki, Cənubi Qafqaz regionuna nəzarət etmədən Türkiyə enerji təhlükəsizliyini təmin edə bilməz.

### Rusiyanın Müasir Türkiyənin öyrənilməsi mərkəzinin direktoru Yuri Mavaşev: "Cənubi Qafqaza nəzarət mexanizmi olmasa Türkiyə Yaxın Şərqin tamhüquqlu sahibinə çevrilə bilməz"

"Bu, əsasən boru kəmərləridir. Həm mövcud TANAP, BTC, həm də Mərkəzi Asiya ölkələri üçün perspektivli olan nəqliyyat dəhlizləri baxımından. Bundan əlavə, Cənubi Qafqaza nəzarət mexanizmi olmasa Türkiyə Yaxın Şərqin tamhüquqlu sahibinə çevrilə bilməz", deyə Mavaşev bildirib.

Lakin göründüyü kimi, Türkiyənin dünyada müstəqil siasət yürütməsi, eləcə də bir sıra beynəlxalq əhəmiyyətli qərarların verilməsində özgür qərarlar verməsi artıq bu ölkənin daha böyük miqyaslı söz sahibinə çevirməsini təsdiq edən faktdır.

Beləliklə, istər Qarabağ münaqişəsinin tənmizlənməsi və Azərbaycanın işğalçı Ermənistanı sülhə məcbur etməsi baxımından, istərsə də digər regional məsələlər baxımından, qardaş Türkiyə dövləti aparıcı aktorlardan birinə çevrilib və bu gerçəklikdən əlbəttə ki, Azərbaycan da öz səmərəsini götürməkdədir. Çünki ortada daha bir reallıq - "Bir millət, iki dövlət" sarsılmaz, əbədi prinsipi dayanmaqdadır.

***Rövşən RƏSULOV***

ANALİTİK

## Ceyhun Bayramovla Mövlud Çavuşoğlu arasında telefon danışığı olub

Bu ilin 16 noyabr tarixində Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramovun Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı baş tutub.




Xarici İşlər Nazirliyindən Trend-ə verilən məlumata görə, nazirlər bölgədəki son vəziyyəti, o cümlədən üçtərəfli bəyanatın həyata keçirilməsi, razılaşmadan irəli gələn bir-sıra məsələlər, eləcə də humanitar xarakterli məsələlərin həlli ilə bağlı fikir mübadiləsi aparıblar. Tərəflər, habelə qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

## Bolqarıstan yanvarın 1-dən Azərbaycandan qaz almağa başlayır



2021-ci ilin yanvarın 1-dən Bolqarıstan Azərbaycandan qaz almağa başlayacaq. Trend-in məlumatına görə, bunu ölkənin baş naziri Boyko Borisov deyib.

Nazir bildirib ki, beləliklə Bolqarıstan enerji tədarük mənbələrinin tam şaxələndirilməsinə nail olacaq.

O əlavə edib ki, Yunanıstan-Bolqarıstan interkonnektorunun tikintisi tam sürətlə davam edir: "Bu interkonnektorla Bolqarıstan Aleksandrupolis mayeləşdirilmiş qaz terminalından ABŞ, Qətər, Əlcəzair, İsrail, Misir və Azərbaycandan qaz əldə edəcək. Layihə bütün bolqarlar və qonşulara faydalı olacaq".

## Çin Mərkəzi Televiziyası erməni vandallığından yazır




Çin Mərkəzi Televiziyasının ingilis dilində yayımlanan CGTN (China Global Television Network) kanalının internet səhifəsində ermənilərin Kəlbəcəri tərk edərkən törətdikləri vandallıqlar barədə məqalə yerləşdirilib. SİA xəbər verir ki, məqalədə Azərbaycan, Rusiya və Ermənistanın rəhbərləri tərəfindən imzalanmış bəyanatın şərtlərinə uyğun olaraq Azərbaycana qaytarılmalı olan Kəlbəcər rayonunda sonradan məskunlaşmış ermənilərin yaşadıqları evləri yandırmalarından, dam örtüyü də daxil olmaqla tikinti materiallarını söküb aparmalarından söz açılıb.

Qeyd olunub ki, Azərbaycanın hüquqi ərazisi olan Kəlbəcər 1994-cü ildə başa çatan müharibə nəticəsində ermənilərin nəzarətinə keçib. Amma bu il sentyabrın sonunda başlayan döyüşlərin gedişində Azərbaycan davamlı hərbi uğurlar əldə edib ki, bunların da kulminasiyası strateji vacib mövqeyi və Azərbaycan mədəniyyətində həssas yeri olan Şuşa şəhərinin azad edilməsidir. Bundan sonra Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri atəşkəs barədə bəyanat imzalayıblar. Bəyanata əsasən, Ermənistanın işğalı altında olan ərazilər Azərbaycana qaytarılacaq. Artıq Kəlbəcərdən Ermənistana gedən yolda kilometrlərlə uzanan avtomobil karvanı yaranıb.

Məqalədə 1994-cü ildə başa çatmış döyüşlər nəticəsində yüz minlərlə azərbaycanlının öz yurdlarından didərgin düşdükləri bildirilib. Kəlbəcərin Azərbaycanın nəzarətinə qaytarılması ilə öz evlərinə qayıdacaq sakinlər yanmış, xarabalığa çevrilmiş evlərlə qarşılaşacaqlar. Qarşıdakı günlərdə Azərbaycana qaytarılmalı olan və vaxtilə minlərlə sakinin yaşadığı Ağdam birinci müharibədə dağılması və ya sonradan qarətçilərin binaların tikinti materiallarını söküb aparması nəticəsində xarabalığa çevrilib.

Məqalədə Azərbaycanın Baş Prokurorluğuna istinadla qeyd olunub ki, Füzuli rayonunda mina partlaması nəticəsində bir nəfər ölüb, digəri isə ağır dərəcəli bədən xəsarəti alıb.

## Şuşada Gövhər ağa məscidinə elektrik enerjisi verildi

"Azərişıq" ASC işğaldan azad olunan ərazilərimizin elkektrik enerjisi ilə təchizatına başlayıb. Xezerxeber.az-ın məlumatına görə, artıq Şuşa şəhərində bununla bağlı işlər başlanıb.

İlk olaraq Şuşadakı Gövhər ağa məscidi elektrik enerjisi ilə təchiz edilib.



## Erməni vandallığının izlərini silirik: Cəbrayıla işıq gəlir



Azərbaycanın işğaldan azad edilən tarixi torpaqlarında quruculuq işlərinə başlanılıb. Bu barədə sosial şəbəkələrdə videogörüntülər paylaşılıb. Videogörüntülərin işğaldan azad edilən Cəbrayıl rayonu yolunda çəkildiyi qeyd olunub.

"Azərişıq" ASC tərəfindən işğaldan azad olunan Cəbrayıl rayonuna yeni elektrik dirəkləri quraşdırılıb. Rayonun bir sıra kəndlərinə elektrik enerjisinin verilişi bərpa olunub.

Ermənilər Azərbaycan torpaqlarını tərk edərkən elektrik dirəklərini də yararsız hala salıblar. Lakinonlar nə edirsə-etsin, Azərbaycanın öz torpaqlarında infrastrukturu yenidən qurmaq üçün kifayət qədər gücü var. "Azərişıq" ASC-nin apardığı quruculuq işləri işğaldan azad edilən digər rayonlarımızda da davam etdiriləcək.

# Prezidentə yazırlar: Siz Qarabağımızı Azərbaycana qaytardınız!

***Azərbaycan vətəndaşlarından, xaricdə yaşayan soydaşlarımızdan, eləcə də qardaş Türkiyə vətəndaşlarından Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə məktublar gəlməkdə davam edir. SİA Prezidentin saytına istinadən həmin məktubların bəzilərini təqdim edir.***

Mevlüt Çelikdən, Aydın, Türkiyə

Hörmətli cənab Prezident.

Mən Türkiyədə yaşayıram. Hər bir ölkə, hətta dünyanın bütün dövlətləri bilir ki, Türkiyə və Azərbaycan qardaş ölkələrdir. Türkiyə hər zaman Azərbaycanın yanındadır və olacaqdır.

Hazırda təqaüddəyəm, bəzən hisskərimi şeirlə ifaqdə edirəm. 1974-cü ildə Türkiyə Kipri müdafiə edəndə "Kıbrıs" adlı bir şeir yazdım və onu o vaxtkı Prezident Rauf Denktaşa, baş nazir Derviş Eroğluna təqdim etdim.

Hər bir insanda, xüsusən Azərbaycan və Türkiyə vətəndaşlarının ürəyində dərin yara açan Xocalı qırğınının ağrı və acısı sağalmamış 2020-ci il sentyabrın 27-də Ermənistan yenidən Azərbaycan torpaqlarına hücum etdi. Xalqlarımız yenidən üzüldü, lakin Azərbaycan öz haqqını döyüşlə, zəfərlə qazandı.

Şəhidləinizə görə Sizə və Azərbaycan xalqına başsağlığı diləyir, Yaralılara şəfa arzulayıram. Azərbaycan Ordusunun daim müzəffər olması üçün dua edirəm.

Mehdi Əhmədovdan, Ağcabədi, Azərbaycan

Möhtərəm cənab Prezident.

Sizi qazandığımız böyük Qələbə münasibətilə təbrik edirəm, Sizə uzun ömür və möhkəm cansağlığı arzulayıram.

Sizin necə bir sərkərdə, necə bir siyasətçi olduğunuza bütün dünya şahid oldu. Düşməni həm döyüş meydanında, həm də siyasi arenada diz üstə qoydunuz. Vətən uğrunda canından keçən şəhidlərimizin qanını yerdə qoymadınız. Allah Sizdən və qəhrəman əsgərlərimizdən razı olsun!

Allah Sizi və Azərbaycan xalqını qorusun!

İsa Hacıyevdən, Füzuli, Azərbaycan

Hörmətli Prezident, müzəffər Ali Baş Komandan.

Vətən müharibəsini Qələbə ilə başa vurduğumuz üçün Sizi, xalqımızı və müzəffər Ordumuzu ailəmiz və öz adımdan ürəkdən təbrik edirəm.

Sizə möhkəm cansağlığı, gələcək fəaliyyətinizdə isə böyük uğurlar arzulayıram. Sizinlə fəxr edirik. Ulu Tanrı Sizi qorusun!

Hüseynağa Kamilzadədən, İsmayıllı, Azərbaycan

Möhtərəm Prezident, müzəffər Ali Baş Komandan.

Sizə Azərbaycanın gələcəyi naminə gördüyünüz işlərə görə özümün, ailə üzvlərimin və İsmayıllı rayonu Lahıc qəsəbəsinin ağsaqqaları adından böyük ehtiramımızı və təşəkkürümüzü bildiririk.

Noyabrın 8-də Şuşanın alınmasına, 10-da isə qəbul olunmuş bəyannaməyə görə çox sağ olun. Siz əsrlər boyu qalmış problemləri həll etməyi bacardınız və Qarabağı Azərbaycana qaytardınız.

Allah Sizə yar olsun.

Tamara Nurəliyevadan, Zaqatala, Azərbaycan

Hörmətli cənab Prezident.



Sizin yaratdığınız peşəkar Milli Ordumuz 28 il işğal altında olan Qarabağı rəhbərliyiniz altında rəşadətli döyüşlər nəticəsində işğaldan azad etdi. Tam Qələbə münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm, cənab Prezident. Allah Sizi qorusun. Biz Sizinlə fəxr edirik, cənab Prezident. Sizin qətiyyətiniz sayəsində düşmənə qalib gəldik. Siz Azərbaycan xalqının qəhrəman oğlusunuz. Azərbaycan xalqına Qələbə sevinci yaşatdınız.

Qarabağ bizimdir!

Qarabağ Azərbaycandır!

Telman Əzimovdan, Sabirabad, Azərbaycan

Hər bir azərbaycanlının əzizi, qarantı olan hörmətli cənab Prezident.

Rəşadətli Azərbaycan Ordusunun müzəffər Ali Baş Komandanı.

Ümummilli lider Heydər Əliyev Azərbaycanı dağılmaqdan, parçalanmaqdan, məhv olmaqdan qoruyaraq müasir və dünya dövlətləri arasında öz dəsti xətti olan bir dövlətə çevirməklə müasir Azərbaycan Respublikasının qurucusu və Ümummilli Lider adını qazandı.

Ulu Öndərin siyasətini layiqincə davam etdirərək Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması, sabitliyin təmin olunması, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması ilə yanaşı müasir dünyaya inteqrasiyanın təmin edilməsi, iqtisadiyyatın gücləndirilməsi, qeyri neft sektorunun inkişaf etdirilməsi, əhalinin məşğulluğunun təmin edilməsi, aztəminatlı ailələrə yardımların verilməsi, yeni-yeni iş yerlərinin yaradılması ilə işsizliyin azaldılması, yoxsulluq səviyyəsinin minimuma endirilməsi eləcədə fəaliyyətiniz müddətində Azərbaycan Respublikasının İslamı dəyərləri özündə qoruyub saxlamaqla dünyəvi dövlətə çevrilməsi, şərq və qərb mədəniyyətinin birgə fəaliyyətinin təşkili, multukultural fəaliyyətin təmin edilməsi, bir çox beynəlxalq tədbirlərə ev sahibliyi etməyimiz, bir sıra beynəlxalq təşkilatlara sədrlik etməyimiz, dünya dövlətləri ilə qarşılıqlı anlaşma və dostluq münasibətlərinin yaradılması, saymaqla bitib tükənməyən iri miqyaslı layihələrin həyata keçirilməsi ötən dövr ərzində ordu quruculuğuna yönəldilən diqqət nəticəsində müasir silahlarla təchiz olunmuş və müasir tələblərə cavab verən nizami ordunun qurulması ilə uzun illərdən bəri xarici havadarlarının dəstəyi ilə torpaqlarımızı xaincəsinə işğal etmiş erməni faşistlərindən qısa müddət - 44 gün ərzində işğaldan azad edən rəşadətli ordumuzun müzəffər Ali Baş Komandanı kimi Siz öz adınızı nəinki Azərbaycan tarixinə, həm də dünya hərb tarixinə qızıl hərflə yazdıra bildiniz. Siz tarixi dövlətçilik ənənələri olan Azərbaycana son yüzilliklərdə əldə olunmayan bir qələbəni yaşatdınız. İşğal altında olan torpaq-larımızı əsl sahibinə Azərbaycan xalqına qaytara bildiniz. Bu təkcə işğal olunmuş torpaqların geri qaytarılması kimi deyil, həmdə Azərbaycanın, Azərbaycan ordusunun tarixi qələbəsidir. Siz haqqın necə güclü olduğunu və Özünüzün necə bir sərkərdə olduğunuzu bir daha təsdiq etdiniz

Azərbaycan Ordusunun döyüşlərdə silahla döyüşərək düşmən üzərində qələbə qazanmağın səbəbkarı məhz siyasi arenada yorulmaq bilmədən hər kəsin öz dilində döyüşərək onlara öz yerlərini göstərməyə nail olmaqla xalqın qəlbində özünüzə layiqli yerinizi tapmaqla sözü ilə əməli bir olan, hər bir azərbaycanlının Prezidenti olan, özünü xalqın xidmətçisi elan edən, hər zaman xalqın yanında olan mərd-mübariz Azərbaycan oğlu olmağınızdır.

Siz bizə ən xoş günləri, ən xoş arzumuzu Cəbrayılın, Zəngilanın, Qubadlının, Füzulinin, Ağdamın, Kəlbəcərin, Laçının Azərbaycanın döyünən qəlbi olan Şuşanın işğaldan azad olunması və qələbəmizin təmin olunması xəbərlərini bizə çatdırmaqla bizim məğlubedilməz xalq olduğumuzu bir daha təsdiq etdiniz, Xocalıda, Xocavənddə, Ağdərədə, Xankəndidə və adları hər birimiz üçün əziz olan digər yaşayış məntəqələrimizdə dünyanın ən gözəl bayrağı olan Azərbaycan Bayrağının ucaldılması sevincini bizlərə yaşatdınız. Bu qələbənin qazanılmasında canlarını qurban verən şəhidlərimizin ruhu qarşısında baş əyirik.

Siz Azərbaycan xalqına, dünya azərbaycanlılarına, ürəyi azərbaycanla döyünən hər kəsə, azərbaycansevərlərə əvəzsiz bir sevinc qələbə, haqq-ədalət sevinci yaşatdınız.

Bizə bu haqq işimizdə mənəvi dəstək olan dövlətlərə, xüsusilədə qardaş Türkiyə Respublikasına, bütün dünya türklərinə bir daha minnətdarlıq edirik.

Müzəffər Ali Baş Komandan, qəlbimizdə Sizin haqqınızda bitib tükənməyən xoş arzular o qədərdir ki, hamısı qeyd etmək olmur. Sadəcə olaraq dünyada nə qədər ən gözəl, ən xoş arzular varsa hamısını Sizə və əzizlərinizə arzu edirəm. Siz millətin xilaskarı kimi zirvəyə ucaldınız. Azərbaycanın yeni tarixini yazan cəsur sərkərdə, məharətli diplomat və siyasətçi olamaqla xalqımızı yumruq kimi birləşdirməyi bacardınız.

Siz Azərbaycan xalqının Qəhrəmanısınız. Siz Azərbaycanın ömürlük Prezidenti olmağa layiqsiniz. Bir daha Allahdan Sizə uzun, sağlam, sülh və əmin-amanlıqla keçən bir ömür arzu edirəm. Allah Sizi və əzizlərinizi qorusun.

Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!

Ülviyyə Quliyevadan, Füzuli, Azərbaycan

Möhtərəm Prezident, müzəffər Ali Baş Komandan.

Mən bir Milli Qəhrəman bacısı, Füzuli sakini olaraq, Sizə minnətdaram. Çünki 27 il həsrətində olduğumuz o müqəddəs torpaqlarımıza yenidən qayıdacağıq.

Mən müəlliməm, çalışıram ki, Füzuli rayonu 22 nömrəli tam orta məktəbdə dərs dediyim şagirdlərə də bu Qələbənin necə böyük tarixi əhəmiyyət kəsb etdiyini, Azərbaycan xalqı üçün nə ifadə etdiyini çatdırım. Öz adımdan və bütün füzulililər adından Sizə və şanlı Ordumuza təşəkkür edirəm.

Eşq olsun Azərbaycan xalqına!

Qarabağ Azərbaycandır!

Gözəl Xəlilovadan, Xocavənd, Azərbaycan

Möhtərəm Prezident, müzəffər Ali Baş Komandan.

Son günlərdə Sizin komandanlığınız altında Qarabağ torpaqlarının rəşadətli Ordumuz tərəfindən işğaldan azad olunması və Qələbə qazanmağımız münasibətilə Sizi təbrik edirəm.

Uca Yaradan bizi dünyada qalib xalq kimi tanıdan Ali Baş Komandanı və igid Ordumuzu qorusun!

Kamran Muradovdan, Naftalan, Azərbaycan

Hörmətli cənab Prezident.

Şuşanın azad olunmasını eşitdikdə hər birimiz sevinc içində küçələrə axışdıq. Bayram sevinci idi. 9 noyabr tarixində Bayraq Gününü qeyd edərkən Sizdən o qədər gözəl xəbərlər gəldi ki, ürəyimiz ikiqat sevinclə doldu. 10 noyabrın ilk saatlarından Sizin xalqa müraciətiniz isə bizə ən böyük hədiyyəni bəxş etdi.

Mən Sizə heyranam, əziz Prezidentim. Ordumuzun qəhrəmanlığı sadəcə Azərbaycan tarixinə deyil, dünya tarixinə qəhrəmanlıq, ədalət və mərhəmət nümunəsi kimi düşəcək. Mən onu bilirəm ki, mənfur düşmən artıq heç zaman torpaqlarımıza əl uzada bilməyəcək. Allah Şəhidlərimizə rəhmət eləsin. Artıq onların ruhu şaddır.

Təşəkkürlər, müzəffər Ali Baş Komandan, təşəkkürlər, müzəffər Azərbaycan Ordusu!

Qarabağ Azərbaycandır!

Ceyhunə Şəfiyevadan, Mingəçevir, Azərbaycan

Möhtərəm Prezident, müzəffər Ali Baş Komandan.

Sizin ərazi bütövlüyümüzün bərpası uğrunda apardığınız mübarizəni rəhbəri olduğum məktəbin pedaqoji kollektivi dəstəkləyir və alqışlayır.

Qələbə sevincini bizlərə yaşatdığınız üçün Sizə təşəkkür edirik.

Eşq olsun Ali Baş Komandanımıza!

# Prezidentə yazırlar: Siz Qarabağımızı Azərbaycana qaytardınız!

Yaşasın rəşadətli Ordumuz!
Məmməd Səfadan, Bakı, Azərbaycan
Hörmətli Prezident, müzəffər Ali Baş Komandan.

Sizi düşmən üzərində möhtəşəm qələbə münasibətilə ürəkdən təbrik edirəm. Sizə Azərbaycanımızın çiçəklənməsi yolunda uğurlar arzulayıram.

Siz bir sərkərdə, uzaqgörən siyasətçi, Ali Baş Komandan olaraq bu gün millətimizin birliyini daha da möhkəmləndirdiniz. Bu müqəddəs yolda canlarını fəda edən igid oğullarımıza Allahdan rəhmət diləyir, şəhidlərimizin ruhu qarşısında baş əyirəm. Fəxr edirəm ki, Sizin kimi dövlət başçımız var.

Yaşasın Azərbaycan xalqı, müzəffər Ordumuz və Ali Baş Komandanımız!

Türkiyənin Ankara şəhərindən Kadir Başar yazır: "Hörmətli cənab Prezident, 44 gün davam edən və şanlı Azərbaycan Ordusunun qələbəsi ilə nəticələnən Qarabağ zəfəri münasibətilə Sizi və Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Qarabağ müharibəsi dövründə göstərdiyiniz yüksək liderlik keyfiyyətləri digər ölkələrin başçıları üçün nümunədir. Azərbaycan Ordusunun müasir silahlarla təchiz olunaraq yüksək əhval-ruhiyyə ilə mübarizəyə başlanması və çox çətin relyefli ərazidə inamla qalib gəlməsi dünyanın bir çox yerində həsəd və qısqanclıqla qarşılandı. Allah 1992-ci ilin fəlakətlərini yenidən Azərbaycana yaşatmasın, həmişə qalib gələnlərdən etsin. Azərbaycanın yolu həmişə açıq olsun. Sizə cansağlığı və uğurlar diləyirəm".

Hatay şəhərindən Rıfat Sağlam: "Hörmətli cənab Prezident, biz türklər Azərbaycanın qazandığı qələbələrə elə azərbaycanlılar qədər sevinirik. Torpaqların geri alınması hamımızı qürurlandırır. Artıq rahat nəfəs ala bilərik, dədə-babalarımızın ruhu şad ola bilər. Vətən torpağı işğalçıdan azad olundu. Ulu Atatürkümüzün dediyi kimi, türkün türkdən başqa dostu yoxdur. Mən də Azərbaycan xalqının yaxın dostu kimi qazandığınız qələbələrdə az da olsa töhfəm olsun deyə balaca ərmağan göndərirəm. Sizi və Azərbaycan xalqını çox sevirəm. Sizin cəsurluğunuz, cəsarətiniz bizi də ürəkləndirir, ruhlandırır. Dünya var olduqca Türkiyə və Azərbaycan dostluğu da var olacaq".

Antalyadan Sami Coşar: "Hörmətli cənab Prezident, Qarabağ uğrunda mübarizədə Ermənistana və havadarlarına ədalətin gücünü göstərdiyiniz üçün çox sağ olun. Türkiyədə yaşayan hər bir vətəndaşın qəlbi bu günlərdə qardaşlarımızın ürəyi ilə bir vurrdu. Bu mübarizə kimin türkə dost, kimin düşmən olduğunu göstərdi. Ən qısa zamanda Azərbaycana, Bakıya gəlib bu şərəfli günləri sizlərlə bir yerdə yaşamaq istəyimin həyata keçməsini səbirsizliklə gözləyirəm".

Karabükdən Kamal Yıldız: "Hörmətli cənab Prezident, Sizi müzəffər fateh kimi salamlamaqdan xoşbəxtlik hissləri keçirirəm. Zəfəriniz mübarək olsun! Ordunuz hər zaman qalib olsun! Cənab Prezident, mən Türkiyədə yaşayıram. Hər səhər namaz qılarkən Azərbaycan üçün, ordunuz üçün dualar oxuyuram. Sizin üçün isə fateh surəsini təkrarlayıram. Bu vaxt göz yaşlarımı saxlaya bilmirəm. Bu qürurdan, sevincdən, doğmalıqdan doğan göz yaşlarıdır. Allah daim köməyiniz olsun! Allah Sizi qorusun, ona əmanət olun!".

İsraildən Yevgeni Xazanov yazır: "Möhtərəm cənab Prezident İlham Heydər oğlu Əliyev, Azərbaycanda anadan olmuş və hazırda İsraildə yaşayan bütün dostlarım adından və şəxsən öz adımdan bütün Azərbaycan xalqını Qələbə Günü münasibətilə təbrik edirəm. Bu tarixi gün təkcə Azərbaycanda deyil, eyni zamanda, bütün dünyada da zəfər salnamələrinə əbədi yazılacaq. Bu günlərdə mən Azərbaycan xalqının Qələbəsi ilə sözlə ifadə edilməyəcək sonsuz qürur duyuram. Allah Sizə uzun ömür, cansağlığı versin, Azərbaycan xalqına dinc səma altında yaşamağı nəsib etsin. Qarabağ həmişə Azərbaycan olub və olacaq!".

Ağcabədi rayonunun sakini Hikmət Aslanov: "Hörmətli cənab Prezident, Sizi və Azərbaycan xalqını bu böyük Qələbə münasibətilə səmimi qəlbdən təbrik edirəm. İşğaldan azad edilmiş hər bir kəndimizdə, qəsəbəmizdə, yüksəkliklərimizdə Azərbaycan bayrağının dalğalandığını görmək bizim üçün böyük fəxarətdir. Bir vətəndaş kimi dövlətim, Prezidentim və xalqımla fəxr edirəm. Yaşasın İlham Əliyev! Qarabağ Azərbaycandır!".

Sumqayıt şəhərindən Əfsanə Ağaməmmədova: "Hörmətli cənab Prezident, Sizin rəhbərliyinizlə şanlı ordumuzun Qarabağımızı işğaldan azad etməsi ilə 30 illik həsrətimizə son qoyuldu. Sizin həm siyasi meydanda, həm də döyüş meydanında necə güclü diplomat və sərkərdə olduğunuzun ən bariz nümunəsini nəinki Azərbaycan xalqı, bütün dünya gördü. Necə gözəl hissdir ki, Sizinlə eyni dövrdə yaşayıram və silinməz, şanlı tarixə şahidlik edirəm. Cənab Prezident, Sizə şəxsən öz adımdan və ailəm adından təşəkkür edirəm. Bizim dədə-baba yurdumuz olan Qubadlımıza dönməyimizi artıq səbirsizliklə gözləyirik. Yaşasın Azərbaycan! Yaşasın Qarabağ! Yaşasın Ali Baş Komandan! Qarabağ Azərbaycandır!".

Yevlax sakini Firail Mahmudov yazır: "Hörmətli cənab Prezident, bu günlər nəinki mənim, bütün Azərbaycan xalqının sevincinin həddi-hüdudu yoxdur. Var olun, cənab Prezident, Qələbəni bizə bəxş etdiniz üçün! Qarabağ Azərbaycandır, Qarabağ Azərbaycan xalqınındır! Bunu edən Siz oldunuz. Azərbaycan xalqı Sizin, Siz isə Azərbaycan xalqının arxasında mərdliklə mətanətlə dayandınız. Sizin səyləriniz və Azərbaycan xalqının əzmi, əsgərimizin mərdliyi Qarabağı bizə bəxş etdi. Çox sağ olun, cənab Prezident, var olun! Sizin siyasətiniz nəticəsində bu gün Azərbaycan Cənubi Qafqazın ən güclü dövlətidir. Artıq bir çox dövlətlər Sizinlə Cənubi Qafqazda məsləhətləşmələr aparacaq. Bu nəticələr neçə illik təcrübənizin, savadınızın nəticəsidir. Bunu Azərbaycana nəsib etdiyiniz üçün Sizinlə fəxr edirəm. Cənab Prezident, Allah-Təala Sizə uzun ömür bəxş etsin! Xahiş edirəm, daim Azərbaycan xalqının yanında olun! Ömürlük bizim Prezidentimiz olun! Bu günləri, bu xoşbəxtliyi Siz bizə nəsib etdiniz. Buna görə də Allah-Təala Sizdən razı olsun. Sizin uğurunuz Azərbaycanın, Azərbaycan gəncliyinin uğurudur. Allah şəhidlərimizə rəhmət etsin. Sizi mən və təbii ki, bütün Azərbaycan xalqı müddətsiz Prezident görmək arzusundayıq. Yaşa, yaşa cənab Prezident, yaşa, yaşa daim yaşa, ey şanlı Azərbaycan!".

Qubadlı sakini Turabxan Həsənli: "Hörmətli cənab Prezident, Azərbaycanın müzəffər ordusunun Ermənistan silahlı qüvvələri üzərindəki parlaq qələbəsi xalqımızın tapdanmış qürurunu yenidən özünə qaytardı. Artıq dünyanın dörd bir yanında yaşayan azərbaycanlılar qürurla "mən azərbaycanlıyam və mənim Prezidentim İlham Əliyevdir" deməklə böyük iftixar hiss edirlər. Sizə nə qədər təşəkkür etsək azdır. Bu 17 ildə Sizin yürütdüyünüz daxili və xarici siyasətin nəticəsidir ki, xalqımız böyük sevinc hisslərinə bürünüb. Allah Sizi və şanlı Azərbaycan Ordusunu qorusun".

Qəbələdən Xanlar Kərimov: "Möhtərəm cənab Prezident, icazə verin, xalqımızın əvəzsiz Prezidentini, sərkərdəsini, diplomatını, böyük şəxsiyyətini bizlərə Qələbə qüruru və sevinci yaşatdığı üçün ürəkdən təbrik edim. Sizə cansağlığı, valideyn xoşbəxtliyi arzulayıram. Bu Qələbəni Sizin rəhbərliyiniz altında həyatını, gələcəyini ortaya qoyan müzəffər Azərbaycan əsgərinin, zabitinin sayəsində qazanmışıq. Bu Qələbə ilə Siz özünüzün və Azərbaycan Ordusunun nəyə qadir olduğunu bütün dünyaya bir daha göstərdiniz. Eşq olsun Azərbaycan xalqına! Eşq olsun Azərbaycan Ordusuna! Eşq olsun Ali Baş Komandana! Ulu Öndərimizə, Zərifə xanıma Allah qəni-qəni rəhmət eləsin! Nə yaxşı ki varmışlar, nə yaxşı ki, Sizin kimi bir oğulu bizə ərmağan etmişlər. Cənab Prezident, bütün bunlar sıradan bir iş deyil. Bütün bunların hamısı İlahidəndir - valideyndən övladına keçən ilahi bir güc. Bu möhtəşəm Qələbənin əldə olunmasında şəhid düşən Vətən övladlarının əziz xatirəsi önündə dərin hörmət və minnətdarlıqla baş əyirəm. Bədəninin müəyyən hissəsini itirən, əlil olmuş hərbçilərimizə şəfalar diləyir, yaralı qardaşlarımıza tezliklə sağalmalarını arzulayıram. Türkiyə dövlətinə, xalqına və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana göstərdikləri misilsiz mənəvi və siyasi dəstəyə görə təşəkkür edirəm. Tanrı Türkiyə və Azərbaycan dostluğunu, qardaşlığını qorusun! Cənab Prezident, Siz ilk gündən işğal olunmuş torpaqların Azərbaycana qaytarılacağını bildirirdiniz. Sizin sözünü tutan birisi olduğunuzdan bütün xalq da bunu ancaq Sizin bacara biləcəyinizə inanırdı. Azərbaycan xalqı hər zaman Sizin arxanızda oldu və Sizə sonsuz dəstək ifadə etdi. Nəhayət, Azərbaycana Qələbə sevinci yaşatdınız. Siz bu Qələbənizlə Ulu Öndərin arzularını gerçəkləşdirdiniz. Ərazisi işğal olunmuş, suveren haqları tapdanmış bir ölkəni, Azərbaycan Respublikasını dünya xəritəsində layiq olduğu yerə qoydunuz. Allah daim Sizi, ordumuzu və xalqımızı qorusun! Amin! Qarşınızda baş əyir, ən dərin hörmətimi, minnətdarlığımı bildirirəm".

Bərdə sakini Knyaz Əliyev: "Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, böyük Qələbə münasibətilə Sizi, rəşadətli Azərbaycan Ordusunu, xalqımızı təbrik edirik. Qazandığınız bu zəfərlərə görə Siz əsl Milli Qəhrəman adına layiqsiniz. Kəndimizin sakinləri hesab edir ki, bu ad, ilk növbədə, Sizə - Ali Baş Komandanımıza verilməlidir. İnanırıq ki, bu məsələ bütün Azərbaycan xalqının da ürəyincə olar. Allah şanlı Ordumuzu və Sizi qorusun! Qarabağ Azərbaycandır!".

Füzuli sakini Sabir Namazov: "Hörmətli cənab Prezident, bizə bəxş etdiyiniz Qələbə sevinci münasibətilə öz adımdan və rəhbərlik etdiyim Füzuli rayon 24 nömrəli tam orta məktəbinin kollektivi adından Sizə dərin təşəkkürümüzü bildiririk. Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən Vətən müharibəsində əməyi olan hər kəsə minnətdarıq. Doğma torpaqlarımızı düşməndən geri almaq uğrunda döyüşərək qəhrəmancasına həlak olmuş şəhidlərimizin ruhları qarşısında baş əyirik. Onlara Allahdan rəhmət diləyirik. Allah Sizi qorusun. Qarabağ Azərbaycandır!".

Kəlbəcər sakini Rövşən Əsgərov: "Möhtərəm cənab Prezident, Müzəffər Ali Baş Komandan, bizlərə bu qürurlu günləri yaşatdığınıza görə Sizə böyük təşəkkür edirik. Heç kimə sirr deyil ki, bu gün Azərbaycan şanlı Ordusunun qələbə zəfərlərindən ruhlanaraq dünyaya ədalət mesajı verir. Bu ruh yüksəkliyi 90-cı illərin əvvəlində mövcud idi, lakin bu hərəkatın lideri yox idi. Bu gün biz fəxrlə deyə bilərik ki, Qarabağ hərəkatının Azərbaycanda lideri İlham Əliyevdir. Azərbaycan tarixinin 3000 illik bir dövrünə nəzər saldıqda, tam məsuliyyəti ilə deyə bilərik ki, son yüksəliş illəri bu xalqın ən möhtəşəm intibah, özünü dərketmə dövrüdür. Ümummilli Liderin təməlini qoyduğu müstəqil Azərbaycan bundan sonra da böyük qalibiyyətlərə imza atacaq. Sizin uğurlu daxili və xarici siyasətiniz öz bəhrəsini verdi. Dünya anlayır ki, Azərbaycan Qarabağın tamhüquqlu sahibidir, ermənilər vaxtilə buraya köçürülüblər. Sovet dönəmindən indiyə kimi Qarabağda ermənilər yaşayıb, dünyanın heç bir yerində ermənilərə bu qədər avtonom hüquq verilməyib. Hörmətli Prezident, bu sadə həqiqəti dünyaya çatdırdığınıza görə Sizə dərin minnətdarlığımızı bildiririk. Uca Allah Azərbaycanı və Sizi qorusun! Mən Prezidentim və Qarabağ hərəkatının lideri İlham Əliyevlə fəxr edirəm. Yaşasın Ali Baş Komandan! Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!".

Ağdam sakini Tofiq Abbasov: "Müzəffər Ali Baş Komandan, Siz müdrik siyasətiniz və haqlı mübarizəniz nəticəsində qazandığınız möhtəşəm qələbə ilə adınızı qızıl hərflərlə tarixə yazdınız. Siz bir daha dünyaya Azərbaycanın güclü dövlət olduğunu göstərdiniz. Bunun üçün Sizə təşəkkürümüzü bildiririk. Azərbaycan xalqı tam olaraq Sizin arxanızdadır, Sizinlə qürur duyur. Bu çətin, lakin şərəfli işinizdə Sizə və rəşadətli ordumuza uğurlar arzulayırıq. Əziz və sevimli Prezidentim, Azərbaycanın hansı bölgəsində yaşamağımıza baxmayaraq, ürəyimiz həmişə ana torpaqla - üstündə ilk addımlarımızı atdığımız, uğrunda canımızı fəda etməyə hazır olduğumuz müqəddəs torpaqla Qarabağla döyünür. Bu müqəddəs torpaq üçün əbədiyyətə qovuşan şəhidlərimizin və onları boya-başa çatdıran valideynlərinin qarşısında baş əyirik. Allah Ordumuza güc və qüvvət versin. Uca Allah Sizə və müzəffər Ordumuza yar olsun! Qələbə bizimdir! Qarabağ Azərbaycandır!".

Zaqatala sakini İlham Həsənov: "Hörmətli cənab Prezident, Zati-aliləri, Azərbaycan xalqına bəxş etdiyiniz bu qürur və fəxarətə görə Sizə hədsiz minnətdarlığımızı bildiririk. Uzun illərdən bəri xalqımız üçün mənəvi utanc olan, şəxsiyyətimizi başıaşağı edən haqsızlığı diplomatik məharətinizlə, rəşadətli sərkərdəlik qabiliyyətinizlə aradan qaldırıb çətin bir şəraitdə ermənilərə qalib gəldiniz. Siz bu əməllərinizlə xalqımızın qəlbində və tarixdə xilaskar, qalib rəhbər kimi əbədi yaşayacaqsınız. Uca Allah Sizi qorusun!".

# Hikmət Babaoğlu: “Böyük tarixi qələbə bütövlükdə regionumuzda yeni geostrateji reallıq yaradacaq”



“Azərbaycan mütləq bir qələbə əldə edib. Qələbənin miqyası olduqca böyükdür. Bu qələbə bütövlükdə Azərbaycan xalqının yenidən doğuş tarixidir. Bu qələbə Ermənistanın kapitulyasiya aktına qeyd-şərtsiz imza atması ilə nəticələnib. Əldə olunan böyük tarixi qələbə bütövlükdə regionumuzda yeni geostrateji reallıq yaradacaq qədər böyük qələbədir”. Bunu SİA-ya açıqlamasında “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin üzvü Hikmət Babaoğlu deyib.

Onun sözlərinə görə, çox mürəkkəb tarixi mərhələdən keçdik: “44 günlük müharibə tarixində hər hansı kiçik səhv böyük faciələrə səbəb ola bilərdi. 30 ilə qədər davam edən danışıqlar prosesində Azərbaycan xalqının səbri, dəyanəti, dözümü sınağa çəkildi. Ancaq Ali Baş Komandan, Prezident İlham Əliyev mürəkkəb regionda bu qətiyyətli qərarı və çox mürəkkəb prosesi diplomatiyanın və siyasətin mümkün etdiyi ən mahir incəliklə idarəetməyi bacardı. Qələbəmizi diplomatik siyasi müstəvidə də möhkəmləndirdi. Müharibələri başlatmaq bəzən asan olur. Ancaq onu bitirmək və müharibədə əldə etdiyini axıra qədər əldə saxlamaq bəzən ondan da çətin olur. Biz 44 günlük prosesdə qələbəni təmin edəcək bütün komponentlərin hamısının necə ustalıqla təmin edildiyini gördük. Azərbaycan Ordusu döyüş meydanında qələbəni təmin etdi və bu qələbə siyasi diplomatik müstəvidə qorundu”.

Deputat bildirib ki, Azərbaycan Dağlıq Qarabağın incisi olan Şuşa şəhərini, onun ardınca bir gündə 70-dən artıq kəndi, 8 strateji yüksəkliyi azad etməklə, Ermənistanı diz çökdürdü və kapitulyasiyaya məcbur etdi: “Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu canı-qanı bahasına Ermənistan ordusunun məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi 44 günə dağıtdı. Bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar etdi, Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Azərbaycan xalqı bu prosesdə bir daha sübut etdi ki, ölkəmizdə xalq iqtidar birliyi olduğu təqdirdə ən çətin məsələlər belə həll olunur”.

H.Babaoğlu vurğulayıb ki, Azərbaycan xalqı bu qələbə əhval ruhiyyəsini böyük coşqu ilə yaşayır: “Bu qələbə Azərbaycan xalqına, xalq da bu qələbəyə layiqdir. Çünki Azərbaycan dövlətçiliyi böyük imtahanlardan keçdi. Azərbaycan Prezidenti ən doğru zamanda ən doğru qərarı qəbul etməklə xalqımızın tarixi qələbəsini təmin etdi. Diplomatik, siyasi və hərbi müstəvidə əldə etdiyi qələbələrlə qalibiyyətimizin simvoluna çevirildi! İlham Əliyev Qarbağ fatehi kimi adını hərbi -siyasi tariximizə qızıl hərflərlə yazdırdı! Son 200 illik tariximizdə ilk dəfə torbaqlarımızı azad müzəffər sərkərdə oldu! 2020-ci ilin ikinci həftəsi ən yeni siyasi tariximizə Böyük Zəfərlər həftəsi kimi yazıldı!”.

*Aysel Məmmədova*

# Erməni valideynlər: “Uşaqlarımızı geri qaytarın, onlar haradadır?”




İtkin düşən əsgərlərin valideynləri Müdafiə naziri David Tonoyan və Baş Qərargah rəisi Onik Qasparyanla görüşməyi tələb edirlər. SİA “Sputnika Armeniya”-nın yayımladığı məlumata istinadən xəbər verir ki, onlarla itgin düşən hərbçi valideynləri və qohumları Müdafiə Nazirliyinin binasına toplaşaraq ərlərinin, qardaşlarının və övladlarının harada olduqları sualına cavab tələb etdilər.

Məlumatda bildirilir ki, Müdafiə Nazirliyinin binası yaxınlığında vəziyyət gərgindir, yalnız qadınlar deyil, kişilər də əsəblərini cilovlaya bilmirlər. Gözləri yaşlı valideynlər uşaqlarının koordinatlarını tələb edir və özləri onların ardınca getməyə hazır olduqlarını söyləyirlər. Eyni zamanda, qeyd olunur ki, Müdafiə Nazirliyinin inzibati binasının girişi polislər tərəfindən bağlanılıb.

“Uşaqlarımız haradadır? Uşaqlarımızı geri qaytarın! Niyə siyahıların heç birində onlar yoxdurlar”, deyə Qarik Mxitaryan adlı birisi jurnalistlərə verdiyi müsahibədə bildirib. Atasının dediyinə görə, Mxitaryanın oğlu avqust ayında orduya çağırılıb, müvafiq təcrübə olmadan, Qarabağdakı müharibənin əvvəlindən cəbhə bölgəsinə göndərilib. İndi oğlu haqqında heç bir məlumatı yoxdur və onun adını siyahıların heç birində də tapmayıb. Mxitaryan deyib ki, valideynlər Müdafiə Nazirliyində bir neçə dəfə olublar və bu sualları Beynəlxalq Qırmızı Xaç Komitəsinə də ünvanlayıblar. O, qeyd edib ki, ancaq heç bir suala cavab verilməyib və itkin düşənlərin siyahısı da ortada yoxdur, onlara deyirlər ki, məsələ həll olunur.

Digər bir valideyn Artur Kirakosyan gözləməyin mümkün olmadığını qeyd edib. Onun sözlərinə görə, Azərbaycan tərəfinə keçən ərazilərdə hələ də xilas edilməsi mümkün ola bilən yaralı əsgərlər ola bilər.

“Onlar səngərlərdə, başqa yerlərdə gizlənirlər. Hələ ki, yaşayırlar, söhbət dəqiqələrdən gedir. Qar yağsa fəlakət olacaq”, deyə həmin valideyin həyəcanını ifadə edib. Kirakosyan deyib ki, o çoxlarının hələ də sağ olduğunu eşidib. “Bəlkə əsirdir, bəlkə də yaralılar arasındadır”, deyə Kirakosyan eşitdikləri məlumatları çatdırıb.

Bu arada Ruzanna Saroyan Sputnik Ermənistana həyat yoldaşını axtardığını söyləyib. “Hadrud istiqamətində döyüşürdü və ondan bir xəbər yoxdur”, deyə həmin qadın bildirib. Ermənistan Müdafiə Nazirliyinin İtkin düşmüş və Əsir götürülmüş şəxslər komitəsinin sədri, polkovnik Vitaly Voskanyan, qohumları haqqında məlumat tələb edərək Müdafiə Nazirliyinin binası yaxınlığında toplaşan nümayişçilərin yanına yaxınlaşıb. Jurnalistlərə verdiyi müsahibədə o, cəsədlərin çıxarılması üçün Ermənistan tərəfinin iş apardığı deyib. “Dünən gecə Rusiya Sülhməramlı Nümayəndəliyinin nümayəndəsi ilə görüşdüm. Rus sülhməramlıları gözlədiyimizdən çox şey edirlər”, deyə Vitaly Voskanyan toplaşanları sakitləşdirməyə çalışıb.

*İnam Hacıyev*

# “Asan İmza” ilə bağlı yeni elektron xidmət istifadəyə verilib

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti yeni elektron xidmət istifadəyə verib. Bu, qüvvədə olan “Asan İmza” sertifikatlarının onlayn yenilənməsi və Şəxsi tipli “Asan İmza” sertifikatı əsasında İş (Biznes) və Dövlət və bələdiyyə tipli “Asan İmza” sertifikatlarının onlayn əldə olunması xidmətidir.

Xidmətdən SİA-ya bildirilib ki, vergi xidmətlərinin böyük əksəriyyətinin elektronlaşdırılmasına baxmayaraq, sahibkarların geniş istifadə etdiyi “Asan İmza”ların əldə edilməsi və yenilənməsi prosesi məsafədən xidmətlər sisteminə daxil edilməmişdi. “Asan İmza” sertifikatının vaxtı başa çatmaqda olan sahibkarlar vergi xidmətləri və ya “Asan xidmət” mərkəzlərinə gəlməli, növbələrdə gözləməli və bir çox prosedurları yazılı şəkildə həyata keçirməli olurdular. Bu məsələ koronavirus pandemiyası ilə mübarizənin gücləndiyi və insanlar arasında təmasların minimallaşdırılmağa göstərilən səylər çərçivəsində son bir neçə ayda daha kəskin şəkildə ortaya çıxmışdı.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 sentyabr 2019-cu il tarixli Qərarı ilə “Sertifikat xidmətlərinin göstərilməsi, sertifikatın verilməsi və reyestrin aparılması Qaydaları”nda dəyişikliklər edilərək Asan Sertifikat Xidmətləri Mərkəzinə (ASXM) müraciət etmiş şəxslə Mərkəz arasında bağlanılan müqavilənin yazılı formada tərtib edilməsi və sertifikatların kağız daşıyıcıda çap edilərək təqdim edilməsi ilə bağlı tələblər aradan qaldırılmış, imza sahibi tərəfindən sertifikatın qüvvədə olma müddəti ərzində yeni sertifikatın alınması üçün Mərkəzə elektron qaydada müraciət etmək imkanının edilməsi üçün hüquqi əsas yaradılmışdı.

Vergi orqanları və vergi ödəyiciləri tərəfindən sərf olunan vaxt, insan və maliyyə resurslarının dəfələrlə azaldılmasına nail olmaq, ASXM-lərinin fəaliyyətinin yeni qaydaların tələblərinə uyğun təşkil etmək və ölkədə COVİD-19 təhlükəsinin qarşısını almaq məqsədi ilə İnternet Vergi İdarəsində proqram təminatında dəyişikliklərin edilməsi, bununla da qüvvədə olan “Asan İmza” sertifikatlarının onlayn yenilənməsi və Şəxsi tipli “Asan İmza” sertifikatı əsasında İş (Biznes) və Dövlət və bələdiyyə tipli “Asan İmza” sertifikatlarının onlayn əldə olunması istiqamətində işlərə başlanmışdı.

Aparılan işlər qüvvədə olan “Şəxsi” yaxud “İş” (Biznes) və ya “Dövlət və bələdiyyə” tipli “Asan İmza” sertifikatlarının qüvvədə olma müddəti bitməmiş onların müddətinin uzadılmasını onlayn formada həyata keçirmək, həmçinin “Şəxsi” tipli “Asan İmza” sertifikatı əsasında “İş” (Biznes) və “Dövlət və bələdiyyə” tipli “Asan İmza” sertifikatlarının onlayn əldə olunması üçün müvafiq imkanının yaradılması ilə bağlı idi.

2020-ci ilin oktyabr ayında bu işlər başa çatdırılıb, “Elektron imza üçün sertifikat xidmətlərinin göstərilməsi üzrə İstifadəçi Təlimatı”na əlavə və dəyişikliklər edilib, o cümlədən mobil operatordan əldə edilmiş “Asan İmza” mobil xidmətinə qoşulma formasının ASXM-ə təqdim edilməsi tələbi aradan qaldırılıb.

Artıq sözügedən elektron xidmət istifadəyə verilib. İstifadəçilər sertifikatın qüvvədə olma müddəti ərzində yeni serifikatın alınması və “Şəxsi” tipli “Asan İmza” sertifikatı əsasında “İş” (Biznes) və “Dövlət və bələdiyyə” tipli “Asan İmza” sertifikatlarının onlayn əldə olunması üçün ASXM-ə elektron qaydada müraciət edə bilərlər. Vergi ödəyiciləri qüvvədə olan “Asan İmza” sertifikatlarının onlayn yenilənməsi prosedurları ilə Dövlət Vergi Xidmətinin rəsmi saytında tanış ola bilərlər. “Qüvvədə olan “Asan İmza” sertifikatlarının onlayn yenilənməsi üzrə İstifadəçi Təlimatı” və “Şəxsi tipli “Asan İmza” sertifikatı əsasında İş (Biznes) və Dövlət və bələdiyyə tipli “Asan İmza” sertifikatlarının onlayn əldə olunması üzrə İstifadəçi təlimatı” rəsmi internet səhifəyə yerləşdirilib.

# “National Herald Tribune”: Azərbaycan regionun geopolitikasını yeniləyir


National Herald TRIBUNE
WORLD DIGEST 5
Azerbaijan Reshapes Regional Geopolitics

Nüfuzlu “National Herald Tribune” nəşri “Azərbaycan regionun geopolitik xəritəsini yaradır” mövzusunda analitik məqalə dərc edib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən (İİTKM) xezerxeber.az-a bildirilib ki, məqalənin müəllifi İİTKM-in icraçı direktoru, iqtisad elmləri doktoru Vüsal Qasımlı bildirib ki, Ermənistanla sülh sənədini imzalamaqla Azərbaycan regionun lider dövləti kimi mövqeyini bir daha sübut edib. Azərbaycanda yaranan “müdrik çevrə”yə uyğun olaraq, güclü iqtisadiyyat ölkənin müdafiə qabiliyyətini, xarici siyasətini və diplomatik uğurlarını təmin edib. Noyabr ayında Trans-Adriatik təbii qaz boru kəməri də istifadəyə verilməklə Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunu gücləndirəcək. Hazırda Azərbaycan Türkiyənin qaz bazarında dörddəbir paya və Gürcüstanın enerji bazarında lider mövqeyə malik olmaqla, İsrailin neftə olan tələbatının 40 faizini təmin edir, Almaniyanı isə neft məhsulları ilə təmin edən ölkələrin ilk onluğunda yer alır. Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin kəsişməsində hab rolunu oynayan Azərbaycan Naxçıvanla ölkənin qərbini birləşdirən yeni koridor yaratmaqla Aralıq dənizi və Xəzər dənizi hövzələrini bir-birinə ən qısa yolla bağlayacaq. Cənubi Qafqazın ən böyük iqtisadiyyatına malik Azərbaycan “bərk güc” və “yumşaq güc”ü birləşdirməklə “smart güc”ə çevrilib.

Məqalədə qeyd olunur ki, bu il Azərbaycanda COVID-19, quraqlıq, aşağı neft qiymətləri və Ermənistanın provokasiyalarından yaranan problemlərlə mübarizədə böhran idarəetməsi uğurla tətbiq edilib. Hazırda Azərbaycan həm postkonflikt, həm də postpandemiya dövrünə daha hazırlıqlı vəziyyətdədir. Çünki Azərbaycan Prezidenti İlham Əliyev dövlət-xalq-ordu birliyini yaratmaqla milli gücü səmərəli istifadə etməyi bacarıb. Məqalə ilə tanış olmaq üçün aşağıdakı linkə daxil ola bilərsiniz: https://bit.ly/2KekqpR

# “Alçaq və xain”: Tiqran Keosayan Paşinyanı darmadağın etdi!

*Rejissor hesab edir ki, Ermənistan baş naziri çuxura qoyulmalıdır*



Rejissor Tiqran Keosayan Youtube kanalında gündəlik verilişində Ermənistanın baş naziri Nikol Paşinyanı sərt tənqid edərək emosional çıxış edib. Keosayan, Paşinyanın niyə “Artsax”ı tanımadığını, yeni silah almadığını və barışıq prosesində iştirakdan imtina etdiyini düşünməyə çağırıb.

Keosayan çıxışını lənətlərlə davam etdirib. O, Paşinyanın Sorosa sadiq qaldığını və mütəmadi olaraq Rusiyanın Qafqazdakı təsirini artırmasını istəməyən ABŞ-a itaət etdiyini qeyd edib. “Paşinyan bir alçaqdır və xaindir, erməni xalqının yaddaşında əbədi olaraq belə qalacaq”- o deyib. “Paşinyan günahkardır ki, özü də böyük ölçüdə provokasiya etdiyi milli çöküş şəraitində “Qərbin köməyi” düşüncəsindən yuxarı qalxa və düzgün qərarlar qəbul edə bilmədi”- deyən Keosayan əlavə edib ki, indi erməni döyüşçülərinin tökdükləri hər damla qan və anaların tökdükləri hər göz yaşı Ermənistan baş nazirinin vicdanındadır. Rejissor qeyd edib ki, Ermənistanda Paşinyana qarşı etirazçılar arasında, hakimiyyət uğrunda mübarizə apararkən onu dəstəkləyənlər çoxdur. O, bu insanların siyasət uğrunda mübarizə apararkən və bu siyasətçini dəstəkləyəndə nə düşündüklərini soruşur.

“Ancaq Paşinyanın tərəfdaşlarını döyməməlisən. Paşinyan başda olmaqla hamısı mühakimə olunmalıdır. Sonra da ömürlük həbsxanaya salın, ancaq bir kamerada deyil, bir çuxurda” deyən Keosayan məktəbliləri çuxura ekskursiyaya aparmağı və 2-ci Qarabağ müharibəsinin uduzan keçmiş liderini göstərməyi təklif edir.

***Elçin Bayramlı***

# Mətbuat Şurası dünya KİV-nə və jurnalist təşkilatlarına müraciət ünvanladı



Azərbaycan Mətbuat Şurası dünyanın kütləvi informasiya vasitələrinə və jurnalist təşkilatlarına müraciət ünvanlayıb. Şuradan SİA-ya verilən məlumata görə, müraciətdə bildirilir: “Dünya ictimaiyyətinin nəzərinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı proseslərdə olduğu indiki məqamda müxtəlif xarici kütləvi informasiya vasitələri də buna adekvat fəaliyyət göstərməkdədir. Onlar münaqişənin tarixini, hazırkı durumunu əks etdirən çoxsaylı materiallar yayımlamaqdadırlar. Bunu təbii sayırıq.

Lakin qeyd etməliyik ki, bu materialların bir çoxu birtərəfli qaydada təqdim edilir, Azərbaycan və Rusiya prezidentlərinin, həmçinin Ermənistanın baş nazirinin üçtərəfli bəyanatından irəli gələrək Azərbaycana məxsus ərazilərdən çıxmalı olan ermənilər məzlum obrazında göstərilir. Belə yanaşmanın yanlışlığını sübut etmək üçün BMT-nin qətnamələrinə və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı digər beynəlxalq sənədlərə diqqət yetirmək zəruridir.

Bununla yanaşı nəzərə alınmalıdır ki, ötən əsrin 90-cı illərinin əvvəllərində əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağın və yeddi Azərbaycan rayonunun Ermənistan tərəfindən işğalı nəticəsində bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir. Bunu sübut edən minlərlə video-görüntü və digər faktlar var. İstərdik ki, dünya mediası hazırda Azərbaycana məxsus torpaqlardan çıxan ermənilərə bağlı materiallar təqdim edərkən onların tarixən Azərbaycana və azərbaycanlılara məxsus ərazilərdə 30 ilə yaxındır ki, qeyri-qanuni məskunlaşması faktına da diqqət yetirsin. Hesab edirik ki, bu, məsələyə ədalətli yanaşma baxımından vacibdir. Biz bir çox hallarda bu yanaşmanı görmür və təəssüflənirik.

İkinci qeyd etmək istədiyimiz məqam beynəlxalq mediada Azərbaycan yer adlarının, toponimlərinin erməniləşdirilmiş formada təqdimatı ilə bağlıdır. Bununla əlaqədar çoxsaylı misallar var. Onlardan bəzilərinin üzərində dayanmaq istərdik. Məsələn, bir sıra xarici kütləvi informasiya vasitələrində Şuşa şəhərinin adı ermənilərin onu səsləndirdiyi kimi Şuşi, Kəlbəcər rayonunun adı Karvaçar, Laçın rayonunun adı isə Berdzor olaraq göstərilir. O da nəzərə alınmalıdır ki, qədim Azərbaycan şəhəri olan Xankəndinin adının da bolşevik erməni millətçisi Stepan Şaumyanın adı ilə Stepanakert adlandırılması doğru deyildir. Bir çox hallarda bilərəkdən edilən belə yanlışlıqlar Azərbaycan mediası, ümumilikdə cəmiyyətimiz tərəfindən hiddətlə qarşılanmaqdadır. Azərbaycan Mətbuat Şurası olaraq Dağlıq Qarabağ həqiqətləri ilə bağlı obyektiv materiallar hazırlayan hər bir xarici kütləvi informasiya vasitəsinə təşəkkürümüzü bildiririk. Hesab edirik ki, onların ədalətli mövqeyi eyni zamanda bölgədə sülh və əminamanlığın, insanların dinc yaşamaq istəklərinin təminatına yönələn müstəsna fəaliyyətdir, bəşəri missiyadır. Bu missiyanın tam şəkildə reallaşması, daha faydalı olması üçün qeyd etdiyimiz məqamların mütləq şəkildə nəzərə alınması lazımdır. İnanırıq ki, bu çağırışımızı səmimi qarşılayacaq, göstərdiyimiz yanlışlıqların aradan qaldırılmasına çalışacaq, bir daha təkrarlanmaması üçün yüksək həssaslıq nümayiş etdirəcəksiniz”.

# Tahir Rzayev: “Sülhməramlıların yerləşdirilməsi Azərbaycan üçün çox faydalıdır”



“Sülhməramlıların yerləşdirilməsi Azərbaycan üçün çox faydalıdır. Ona görə ki, birincisi atəşkəsə əməl olunur, insan tələfatının qarşısı alınır. İkincisi də Ermənistan artıq özünün məğlub olduğunu bu sənədlə etiraf edir. Digər tərəfdən də sülhməramlıların gəlməsi ilə Azərbaycan bir dəstək qazanmış olur.” Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.

Komitə sədri qeyd edib ki, biz onsuz da düşməni tamamilə məhv edəsiydik, amma bu, beynəlxalq təşkilatlar tərəfindən yaxşı qarşılanmayacaqdı və onlar müəyyən bəhanələrlə, guya ermənilərə qarşı soyqırım törədildiyi, təcavüz edildiyi adı ilə hansısa bir sanksiya tətbiq edə bilərdilər.

“Çox düzgün oldu ki, bizimkilər Xankəndinə girmədilər. Ordumuz, əsgərlərimiz Xankəndinə girə bilər, düşməni tamamilə məhv edə bilərdilər. Lakin, BMT də, ATƏT də, digər beynəlxalq təşkilatlar da həmən deyəcəkdilər ki, ermənilərə qarşı soyqırım, təcavüz olunub. Bu da bizə lazım deyil.

Sülhməramlıların yerləşdirilməsi həm də bizim özümüzün təhlükəsizliyimiz üçün çox vacibdir. Biz torpaqların qalan hissəsini də digərləri kimi azad edib, qoşunlarımızı sərhəddə yerləşdirə bilərdik və yerləşdiriləcəkdi də. Ancaq, vaxtaşırı, gündəlik olaraq ermənilər tərəfindən atəşə məruz qalacaqdı mülki əhalimiz. Biz isə cavab atəşi açsaydıq Ermənistan tərəfə, beynəlxalq təzyiqlərlə qarşılaşacaqdıq.

Digər tərəfdən də bizim üçün ən yaxşısı odur ki, artıq itgisiz, qansız şəkildə bu torpaqlar azad olunur. Bilmək lazımdır ki, bu itgilərlə yanaşı dövlətin iqtisadi baxımdan ziyan görəcəyi də təkzib edilə bilməz. Hər bir hərbi texnikanın, hər silah-sursatın çox böyük qiyməti var və bu baxımdan da əhəmiyyətli dərəcədə zərərlə üzləşə bilərdik.

Onu da nəzərə almaq lazımdır ki, sərhəd zonaları strateji mövqelərdir. Oranı, o istehkamları çətin bir vaxtda, soyuq bir vaxtda keçmək çox çətin idi. Biz əlavə qurbanlar verə bilərdik.

Bizə faydalı olan məsələlərdən biri də odur ki, artıq biz Naxçıvan dəhlizini əldə elədik. Azərbaycanın gələcək inkişafı üçün Naxçıvandan dəmir yolunun, avtomobil yolunun çəkilməsi çox faydalıdır. Bu nəinki Azərbaycan üçün, eləcə də Türkiyə üçün, İran üçün, Rusiyanın özü üçün də faydalıdır.

Bəzi adamlar bilmədən durub nə gəldi danışırlar ki, ruslar yenidən dəvət olundu, yox, bu belə deyil. Bu müqavilənin şərti, bəyanatda göstərildiyi kimi beş ildir. Ola bilsin ki, burada hansısa bir ziddiyət olarsa, Azərbaycan həmin sülhməramlıların çıxarılması ilə əlaqədar məsələ qaldıra bilər və buna haqqı da var. Əgər kimsə məlumatsız olaraq nə isə deyirsə, deməli, gələcəyi görməyən adamdır.

Başqa bir tərəfdən, unutmaq lazım deyil ki, qardaş ölkənin Prezidentinin, səlahiyyətlilərinin də dediyi kimi, Türkiyə bütün məsələlərdə Azərbaycanın yanındadır. Azərbaycanın mənafeyinə toxunan, təhlükəsizliyinə təminat verməyən hərhansı bir hərəkət qətiyyətlə aradan qaldırılacaq.

Kəlbəcər artıq boşaldılır və ermənilər gedirlər. Ağdamdan da bu ermənilər gedəcəklər, Laçından da dekabrın birinə qədər bu ermənilər təmizlənəcəklər. İndi dəhlizdə sülhməramlılar hələki var, oradadırlar. Türkiyə də bu məsələyə qarışacaq və qaçqınların, məcburi köçkünlərin köçürülməsi ilə əlaqəli detallar ki, var onlar da həll olunacaq və bu Qaçqın və Köçkünlərin Ali Komissarlığı tərəfindən həyata keçirilməlidir. Bu da ikinci ən böyük mötəbər təşkilatdır ki, gəlib prosesdə iştirak edəcək. Ola bilsin ki, digər ölkələrin qüvvələri də, o qüvvələr ki, humanitar məsələlərlə məğuldurlar, onlar da öz təkliflərini verə bilərlər. İndi məsələn, Qızıl Xaç öz təkliflərini verir və cəsədlərin, əsirlərin dəyişdirilməsi ilə məşğuldur və bu çox yaxşı haldır. Digər tərəfdən, əgər beynəlxalq əhəmiyyətli belə təşkilatlar varsa, onların Azərbaycana gəlməsi, bu hadisələri gözləri ilə görməsi, ermənilərin vurduğu ziyanı qiymətləndirməsi və onun sübut edilməsi dinc şəraitdə bizim üçün çox vacibdir”, deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# Paşinyan: “Son iki gündə Şuşadan 300-dən çox erməni hərbçinin meyiti götürülüb”



“Şuşanı saxlamaq mümkün olsaydı, saxlayardıq”. Xezerxeber.az-ın məlumatına görə, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan parlamentin tribunasından deyib.

Onun sözlərinə görə, son iki gündə Şuşadan 300-dən çox erməni döyüşçünün meyiti götürülüb.

“Mən bu barədə danışmaq istəmirdim, amma məcburam - son iki gündə Şuşadan 300-dən çox erməni hərbçinin meyiti götürülüb. 300-dən çox meyit. Siz döyüşün miqyasını təsəvvür edirsiniz? Bəzi adamlar var ki, guya generalların, yaxud siyasi rəhbərliyin Şuşa uğrunda döyüşməmək barədə əmr verdiyini deyir. Onda bu ölənlər kimin əmri ilə döyüşüb həlak olublar?”. N. Paşinyanın sözlərinə görə, Şuşanın verilməsi barədə şayiə yayanlar istintaq orqanlarına dəvət olunur, onlardan bu informasiyaları hardan aldıqları, satqının kim olduğu barədə soruşulur: “Lakin həmin şəxslər ifadələrində qeyri-müəyyən şeylərdən danışırlar, suallara konkret cavab verə bilmirlər”.

## Rus sülhməramlıları qaçan erməniləri niyə geri qaytarır?



Dağlıq Qarabağdan qaçan daha 475 erməni Rusiya sülhməramlılarının müşayiəti ilə Xankəndinə qaytarılıb. SİA erməni mənbələrinə istinadən xəbər verir ki, bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb.

Bundan əvvəl 250 nəfərin Xankəndinə qaytarıldığı bildirilib. “19 avtobusdan ibarət konvoyda 475 nəfər Xankəndiyə qayıdıb. Konvoy Rusiya sülhməramlı kontingentinin və hərbi polisin müşayiəti ilə İrəvan-Xankəndi marşrutu ilə gətirilib”, - məlumatda qeyd edilib. Rusiya hərbçilərinin təmas xətti boyunca avtobusların təhlükəsiz hərəkətini təmin etdiyi vurğulanıb.

# Co Baydenin prezidentliyi nə vəd edir?

***Ən qalmaqallı prezident seçkilərindən biri kimi ABŞ tarixinə düşəcək 3 noyabr seçkisinin rəsmi nəticələri hələ açıqlanmayıb.***

ABŞ-ın seçki ənənəsinin ziddinə olaraq məğlub olduğu aydın görünən namizəd, hazırkı prezident Donald Tramp rəqibinin qalibiyyətini etiraf etmir.

Məlumatlara görə, müşavirləri də prezidenti məğlub olduğunu etiraf etməyə razı sala bilməyiblər. Eyni zamanda, dövlət başçısının bundan sonra hansı addımlar atacağı ilə bağlı da dəqiq təsəvvürlər mövcud deyil. Donald Tramp məğlubiyyətini etiraf etməsə də, ABŞ-ın nəhəng media strukturlarının hamısı - ABC News, Fox News, CNN, AP, NBC sabiq vitse-prezident Cozef Robinett Baydenin qalib gəlməsi haqqında məlumat yayıblar. Co Baydenin qalib gəlməsi haqqında məlumatı yayan media orqanlarının arasında Donald Trampın təbliğatçısı olan Fox News-un da yer alması seçkinin nəticəsi ilə bağlı şübhələrə yer qalmadığını göstərir.

ABŞ-ın aparıcı media orqanlarının seçkinin qalibi kimi eyni şəxsi elan etmələrindən sonra isə Co Bayden dövlət və hökumət başçılarından, siyasi liderlərdən təbrik məktubları almağa başlayıb. Co Baydeni ilk olaraq Kanadanın Baş naziri Castin Trudi təbrik edib. Onun ardınca isə Fransa prezidenti Emmanuel Makron, Belçikanın Baş naziri Aleksandr De Kroo, Böyük Britaniya hökumətinin başçısı Boris Conson, Almaniyanın kansleri Angela Merkel, Avropa Parlamentinin sədri Martin Şults, Yunanıstanın Baş naziri Kiriakos Mitsotakis, Londonun meri Sadiq Xan və digər avropalı liderlər Co Baydeni təbrik ediblər. Avropa ölkləri arasında yalnız Sloveniyanın Baş naziri Yanez Yanşa tələsiklik edib Donald Trampı təbrik etmişdi. Yanez Yanşanın bu addımı Donald Trampın həyat yoldaşı Melaniya Trampın əslən sloveniyalı olması ilə izah edilir. Co Baydeni təbrik etməyə tələsən avropalı liderləri də anlamaq mümkündür. Çünki hazırkı prezident Donald Trampın avropalı liderlərlə aşağılayacı davranışı haqqında çoxsaylı məlumatlar var. Fransanın ABŞ-dakı sabiq səfiri Jerar Aponun sözlərinə görə, Trampın avropalı liderlərlə danışıq tərzi alaçaldıcı idi: "Ağ ev sahibi Almaniyanın kansleri Angela Merkeli, 2016-2019-cu illərdə Böyük Britaniyanın Baş naziri olmuş Tereza Meyi açıq şəkildə təhqir etməkdən çəkinmirdi". Avropalılar kimi, Çin də Co Baydenin qalib gəlməsindən məmnun qalıb. Sabiq vitse-prezidentin qalib gəlməsinə sevinənlər arasında Gürcüstanın sabiq prezidenti Mixail Saakaşvili, Belarus müxalifətinin lideri Svetlana Tixanovskaya, Moldovanın sabiq Baş naziri Vlad Filat da var. Türkiyə siyasətçiləri arasında Co Baydeni ilk təbrik edən Cümhuriyət Xalq Partiyasının sədri Kamal Kılıçdaroğlu olub. Müxalifət liderinin prezident Rəcəb Tayyib Ərdoğandan öncə Co Baydeni təbrik etməsi Ankarada siyasi dedi-qodulara səbəb olub.




Co Baydenin qalib gəlməsinə sevinənlərin isə hər birinin özünə görə səbəbləri var. Çinlilər Trampın Ağ evi tərk etməsinin iki ölkədə ticarət müharibəsinin başa çatmasına səbəb olacağına ümid edirlər. Avropalı liderlər də Co Baydenin qalib gəlməsi ilə Trampın prezidentliyi dövründə korlanmış siyasi və iqtisadi münasibətlərin əvvəlki səviyyəsinə qayıdacağına ümid bəsləyirlər. Avropalı liderlər Co Baydenin prezidentliyi dövründə Trampın zamanında ABŞ-ın tərk etdiyi Paris İqlim Sazişinin, İranın nüvə sənayesi fəaliyyətini məhdudlaşdıran Birgə Hərtərəfli Hərəkət Planının (Joint Comprehensive Plan of Action) yenidən bərpa olunacağına ümid edirlər. Ən əsası isə Co Baydenin prezident seçilməsi ilə Transatlantik əməkdaşlığın əvvəlki səviyyəsinə qayıdılacağına, Vaşinqtonun NATO çərçivəsində öhdəliklərinə sadiqliyi ilə bağlı müttəfiqlərində əminlik yaradacağına inanırlar.

Co Baydenin hakimiyyətə gəlməsinə sevinənlərdən biri də İrandır. Ancaq sabiq vitse-prezidentin qalib gəlməsindən sonra Vaşinqtonun Türkiyə, Macarıstan və Rusiya ilə münasibətlərində gərginliyin artacağı gözlənilir. Xüsusilə də sabiq vitse-prezidentin ermənipərəst mövqeyi Türkiyə və Azərbaycanda narahatlıq doğurur. Ancaq təhlilçilər Co Baydenin də dövlət maraqlarından çıxış edərək Türkiyə və Azərbaycanla əməkdaşlıqda maraqlı olacağını qeyd edirlər. Bununla belə, zaman-zaman Vaşinqtonla Ankara arasında gərginliyin yarana biləcəyi də istisna olunmur.

ABŞ-dakı erməni lobbisi Co Baydenin prezident seçilməsindən istifadə edərək Azərbaycana təzyiqləri artırmağa çalışacaq. Artıq bununla bağlı müyyən əlamətlər görünməyə başlayıb. The National İnterest nəşri Co Baydeni vəzifəsinə Azərbaycana qarşı sanksiya tətbiq etməklə başlamağa çağırıb. ABŞ-dakı erməni lobbisinin isə gözləntiləri daha çoxdur. Co Baydenin bütün siyasi karyerası boyunca ermənipərəst mövqe tutması, Azərbaycana qarşı bir sıra məhdudiyyətlər nəzərdə tutan "Azadlığa dəstək" Aktına 907-ci düzəlişə səs verməsi hər kəsə məlumdur. Ancaq Co Bayden vitse-prezident olduğu 8 il ərzində 907-ci düzəliş dondurulmuşdu və Azərbaycan ABŞ-dan birbaşa yardımlar alırdı. Buna görə ehtimal etmək olar ki, prezident Bayden "senator Bayden"dən fərqli siyasət aparacaq. Ancaq bu, baş verməsə belə, Co Baydenin ermənipərəstliyindən çox da narahat olmaq lazım deyil. Tarixə "müstəqil Ermənistanın qurucusu" kimi düşmək istəyən ABŞ-ın 28-ci prezidenti Vudro Vilson Zəngəzuru və Qarabağı Azərbaycandan 1919-cu ildə qoparmaq istəyən ermənilərə heç bir yardım edə bilmədi. Halbuki o zaman Azərbaycan dövləti yeni yaranmışdı və çox kiçik imkanlara sahib idi. Co Baydenin yaşı və səhhəti onun fəal prezident olmasına imkan verməyəcək. Çox güman ki, əsas söz sahibi vitse-prezident Kamala Harris olacaq. İstisna deyil ki, bu xanım 4 il sonra ABŞ-ın prezidenti də ola bilər. Ona görə də Azərbaycan bu xanım siyasətçi ilə yaxşı münasibətlər qurmağa çalışmalıdır.

Co Baydenin hakimiyyəti zamanı Vaşinqtonla Moskva arasında gərginliyin arta biləcəyi ilə bağlı ehtimalları əksər təhlilçilər səsləndirirlər. Sabiq vitse-prezident bir neçə dəfə Rusiyanı bir çox əməllərinə görə cavab verməyə məcbur edəcəyini bəyan edib. Seçki kampaniyası zamanı Co Bayden Trampdan fərqli olaraq Çini rəqib, Rusiyanı isə təhlükə mənbəyi kimi xarakterizə edirdi. Co Baydenin mənsub olduğu Demokratlar Partiyasında belə qənaət mövuddur ki, partiyanın 2016-cı il seçkilərində namizədi olmuş Hillari Klintonun məğlub olmasında, Trampın qalib gəlməsində Rusiya xüsusi rol oynayıb. Buna görə demokratlar Rusiyanı sərt cəzalandırmağa çalışırlar. Co Baydenin prezident seçilməsindən sonra demokratların imkanları daha da artacaq.

Ağ ev sabinin dəyişməsi ilə Vaşinqtonun xarici və daxili siyasətində dəyişiklik baş verəcəyinə heç bir şübhə ola bilməz. Vaşinqtonun siyasətində baş verəcək dəyişiklik isə heç şübhəsiz ki, bütün dünyada siyasi və iqtisadi proseslərə ciddi təsir edəcək.

***Xaqani Cəfərli***
***Newtimes.az***

# Müxalifətin saxtakarlığı gecəyarısı necə "ifşa" olundu?



***İndiyə qədər özünü "ana müxalifət" elan edən və sentyabrda hakimiyyətə gələcəkləri-ni dəfələrlə dilə gətirən "Milli şura"nın qeyri-cid-di qurum olduğunu de-yirdim. Bütün qərarların heç olmasa 5-6 nəfərin arasında keçirilən "qey-bət-müzakirə"lərdən sonra qəbul olunduğu-nu düşünürdüm.Sonrakı hadisələr göstərdi ki, yanılmışam.***

Məlum oldu ki, "hakimiyyət həsrəti" ilə alı-şıb-yanan bu "qurum" heç nəyi müzakirə etmir, onun rəhbərliyində olanlar bir-birinin fikirlərinə dəyər vermir, çıxışlarını izləmir və hətta ən mü-hüm məsələlər barədə verdikləri "bəyanatlarla" belə maraqlanmırlar. Bir sözlə "Milli şura" deyi-lən bir qurum mövcud deyil və özünə "ana mü-xalifət" deyən bu təşkilatın "rəhbərlərinin" bir-birinin nə danışdıqları barədə anlayışları belə yoxdur. Olmayan bir şey haqqında "qeyri-ciddi qurum" ifadəsini işlətmək, real iş görən "qeyri-ciddi qurumlara" münasibətdə böyük hörmət-sizlik və ədalətsizlik olduğundan, mən "Milli şura" barədə dediklərimdən imtina etmək qə-rarına gəldim.

Bu qərara gəlməyimin əsas səbəbi isə "Mil-li şura"nın liderlərindən biri olan G.Hacıbəyli-nin gecəyarısı "Osmanqızı tv"-də söylədikləri sözlər oldu. Şura təmsilçisi Azərbaycanda Tür-kiyənin bir neçə hərbi bazasının qurulmalı ol-duğunu bəyan edərkən əməlli-başlı təəccüblə-nən aparıcı ona xatırlatdı ki, avqustun əvvəllə-rində elə bu kanalda çıxış edən C.Həsənli Tür-kiyə hərbi bazalarının respublikamızda yerləş-dirilməsinə qəti etiraz edib. Gültəkin xanım isə cavabında onun dediklərinə "kiçik düzəliş" edəcəyini dedi və həmin "düzəliş"dən sonra həqiqətlə qətiyyən əlaqəsi olmayan fikirlər söylədi. İddia etdi ki, həmin verlişdə Anar Məmmədli Türkiyə bazalarına qarşı çıxıb. Cə-mil Həsənli isə "israrla Türkiyə hərbi bazasının Azərbaycana gəlməli olmasını" əsaslandırıb. Üstəlik, "Milli şura" da öncədən bu fikirdə olub.

Sonra C.Həsənlinin həmin verlişdə guya səsləndirdiyi "arqumentləri" təkrarlayacağını deyən G.Hacıbəyli öz düşüncələrini sədrin boynuna qoymağa, sədri öz cümələri ilə da-nışdırmağa cəhd etdi. İddia etdi ki, 11 avqust çıxışında C.Həsənli mühüm arqumentlər səs-ləndirib, "Azərbaycanla münaqişədə olan ölkə-də Rusiyanın hərbi bazasının"olduğunu və "hə-min hərbi bazadan Ermənistan ordusunun si-lahlandırılması üçün istifadə" olunduğunu və s. məsələləri nəzərə almağı, " Azərbaycan ərazi-sində heç olmasa indi Türkiyənin hərbi bazala-rının yerləşdirilməsini" təklif edib. Gördüyünüz kimi, hələ avqust ayında "Milli şura"nın Azər-baycanda Türkiyə hərbi bazalarının yerləşdiril-məsinin zəruriliyi barədə "mövqeyi" və bunu əsaslandıran "arqumentləri" olub.

Elə isə bu "mübarək" "mövqe" və "arqu-mentlər"i hazırlayan kimdir və onlardan "şu-ra"nın sədri C.Həsənlinin niyə xəbəri yoxdur? Nədən bu "mötəbər müzakirə"lərin nəticələri Əli Kərimliyə çatdırılmayıb? Nədən onun bu deyilənlərdən xəbəri olmayıb? Əgər bazaların yerləşdirilməsinin "lehinə" olan "arqumentlər" Milli şura sədrinə və faktiki lider Ə.Kərimliyə çatdırılsaydı, yəqin ki, avqust ayında o dəhşət-li bəyanatlar verilməzdi. "Milli şura"nın sədri C.Həsənli də, lideri Ə.Kərimli də bazalarla bağlı G.Hacıbəylinin son dərəcə düzgün möv-qeyində dayanardılar və mən də onlarla əlaqə-dar isti avqust günlərində bu sətirləri yazmaq əziyyətinə qatlaşmazdım: "Uzun susqunluqdan sonra "Milli Şura"nın sədri Cəmil Həsənli, nə-hayət, avqustun 11-də Osmanqızı kanalında canlı yayıma qatılaraq Sevinc Osmanqızının təkidli suallarından sonra bu məsələyə(Türkiyə hərbi bazaları barədə ) mü-nasibət bildirmək məcbu-riyyətində qaldı.

Digər qonaq Anar Məm-mədlinin "Türkiyə ilə, xüsu-silə, Ərdoğanın rəhbərlik et-diyi Türkiyə ilə yaxınlıq mə-sələsində diqqətli olmalıyıq" kimi təhlükəli bəyanata mü-nasibət bildirməkdən çəki-nən C.Həsənli əsas məsələ-yə keçməzdən əvvəl müxali-fətin şəninə təriflər söylədi, iqtidara "növbətçi" ittihamlar yağdırdı, "Azərbaycanda Türkiyə ilə yaxınlaşmağın ən qatı əleyhdarı İlham Əliyevin hakimiyyətidir, nə qədər ki, Əliyevlər hakimiy-yətdədir, onlar türk ordusunun Azərbaycanda qalmasına razı ola bilməzlər"-kimi böhtanlar söyləməkdən çəkinmədi. Səbri tükənən S.Os-manqızı onun sözünü kəsərək-"Azərbaycanda heç bir bazaya ehtiyac yoxdur" hökmünü verdi və ondan birmənalı mövqe bildirməsini istədi. Yalnız bundan sonra C.Həsənli gəlib çıxdı əsas məsələyə və ərz elədi ki: "Azərbaycanın ərazisində hansısa hərbi bazanın olması məq-sədəuyğun deyil".

"Məqsədəuyğun deyil"- dedi, Gültəkin xa-nım, nə zərurət, nə israr etmək, nə "arqument-lər" gətirmək. "Hərbi baza hərbi əməkdaşlığın yüz formasından biridir". Olsa-olsa, C.Həsənli-nin xüsusi əda ilə söylədiyi bu cümləni böyük güzəştlə "arqument"ə bənzər bir şey hesab et-mək olardı, o da bazanın "lehinə" yox, "əleyhi-nə" deyilmişdi. C.Həsənlidən bir həftə sonra eyni kanalda Ə.Kərimli danışdı və mən onun dediklərinə növbəti məqaləmdə münasibət bil-dirmək məcburiyyətində qaldım: "Avqustun 18-də Osmanqızı tv-yə müsahibə verən AXCP sədri S.Osmanqızının- "Azərbaycan-Türkiyə arasında hərbi əməkdaşlıq necə olmalıdır(yeri gəlmişkən aparıcı bu dəfə sualı birmənalı - Azərbaycana Türkiyənin hərbi bazası olmalı-dırmı- şəklində qoymadı və Ə.Kərimliyə qəti cavabdan yayınmaq imkanı verdi) sualına ca-vab verərkən dedi: "Baxıb görürəm, xeyli adam doğrudan da belə ruhlanıb ki, Türkiyə ordusu gələcək və Qarabağı azad eləyəcək. Belə dü-şünmək olmaz axı? ...Nə olub bizə? 10 milyon-luq ölkəyik. Bizim heysiyyətimizə toxunmur ki, biz 3 milyonluq Ermənistandan öz torpaqları-mızı azad eləyə bilməyək? Türkiyə gəlib bizim torpaqlarımızı azad eləsin? Türkiyənin bizim çiynimizdə (yəqin arxamızda demək istəyir-A.S.) dayanması 3-cü qüvvələr üçündür ki, əgər Ermənistanın himayəsində (Bu da təzə xəbərdir. Demə Rusiya Ermənistanın himayə-sində imiş-A.S.) duran dostu varsa, Azərbay-canın da dostu var". Beləcə, Ə.Kərimli həm xalqımızı "heysiyyətli olmağa" çağırdı, həm də C.Həsənlinin "Azərbaycanın ərazisində hansı-sa hərbi bazanın olması məqsədəuyğun deyil"-mövqeyinə dolayı dəstək verdi".

Bütün bunlardan sonra G.Hacıbəyli gecə-yarısı "Milli Şuran"nın və C.Həsənlinin Azər-baycanda Türkiyə hərbi bazalarının yaradılma-sının qızğın tərəfdarı olduqlarını iddia etdi, onun adından "arqumentlər" uydurmaq məcbu-riyyətində qaldı. Üstəlik onu da dedi ki, "Milli şura" ən azı 3-4 ay bundan əvvəl də bu mövqe-də olub. Maraqlıdır ki, həqiqəti hamıdan yaxşı bilən S.Osmanqızı C.Həsənlinin bu cür gecə-yarısı "ifşa" olunmasına heç bir münasibət bil-dirmədi və susmağa üstünlük verdi. Adı ilə hər dəfə dəyərli bir insanı-Osman Mirzəyevi xatır-ladan kanalında "həqiqətin anasının növbəti dəfə ağladılması" qəribə susqunluqla müşa-hidə etdi.

"Milli Şura"nın pul silinməsi məqsədilə ke-çirilən mitinqlərində boğazı cırılana qədər qış-qıran qardaş və bacılarım!

Bu rəzalətə təəccübləndinizmi?

***Abutalıb Səmədov,***
***Azərbaycan Naminə Alyans Partiyasının sədri.***

## Tiqran Abramyan güc strukturlarına anti-Paşinyan çağırışı etdi: Fəaliyyətə keçin!



"Onik Qasparyan, David Tonoyan görürsünüz nə baş verdi? Hərəkətə keçin, çünki oyun masasına ermənilə-rin, ordumuzun, dövlətçiliyimizin mövcudluğu qoyulub". SİA xəbər verir ki, bu barədə özünün "Facebook" sə-hifəsində "Enaket" anlitik mərkəzinin rəhbəri, hərbi analitik Tiqran Abram-yan yazıb.

"Görürsünüz ki, bizim ordumuzla, zabit poqonlarımızla, şərəf və ləyaqətimizlə bağlı nə baş verir?", sualını edən Abramyan bildirir: "Onun (Paşinyanın) silahlı qüv-vələrə müdaxilə etməsi, sizləri daxili siyasi şoulara qatması, hazırkı məqamda və-təndaş qarşıdurmalarının yaranması anonsunun verilməsi barədə mən sözə xəbər-darlıq etmişdim. Sizin öz nüfuzunuzu xilas etməyiniz üçün hələ ki, şansınız var. Fəaliyyətə keçin..."

Xatırladaq ki, Ermənistanın baş naziri Nikol Paşinyan özünün "Facebook" sosi-al şəbəkəsində bu cür yazı ilə çıxış edib: "Mən bu gün cəbhədə olan onlarla əsgərə baxdım. Mən oğlanların dayanıqlığına görə dəhşətə gəlmişəm. Oğlanlar, siz haqlı-sınız. Sizi İrəvanda divarlar altında ulayanlarla bağlı məsələni birdəfəlik həll etmək üçün gözləyirəm. Mən sizinlə fəxr edirəm".

***Rövşən RƏSULOV***

## Politoloq: "Məsələnin iki tərəfi; biri humanizm, digəri vandalizm"



"İşğalda olduğu müddət ərzində beynəl-xalq hüquq normalarına tamamilə zidd olaraq Kəlbəcərdə Ermənistan tərəfindən qeyri-qanuni məskunlaşdırma siyasəti həyata ke-çirilib. Azərbaycan tərəfi də münaqişənin gərginlik fazası yaranana qədər beynəlxalq hüquqi sənədlə-rə istinadən birmənalı şəkildə beynəlxalq aləmə və dünya ictimaiyyətinə hər zaman öz açıqlamala-rında bildirib ki, işğal edilmiş ərazilərimizdə məs-kunlaşmaların aparılması qeyri-qanunidir və bunun heç bir hüquqi qüvvəsi yoxdur. Orada kəlbəcərlilər yaşayıb və kəlbəcərlilər öz evlərin, ev əşyalarını salamat qoyub çıxıblar. Qeyri-qanuni məskunlaşan ermənilər Kəlbəcərdən çıxarkən öz mənfur xis-lətlərinə sadiqlik nümayiş etdirərək vandal olduqlarını bir daha göstərir, evləri, me-şələri yandırır, təbiətə, ətraf mühitə ciddi ziyan vuraraq oranı tərk edirlər. Bütün dün-ya anlamalıdır ki, ermənilər Kəlbəcərə müvəqqəti gəlib məskunlaşıblar və orada heç bir ev tikməyiblər. Buna görə də orada olan mülkiyyətin də hər hansı bir hüquqi qüv-vəsi yoxdur". Bunu SİA-ya açıqlamasında politoloq Şəbnəm Həsənova deyib.

Ekspert bildirib ki, 1993-cü ildə Kəlbəcər işğal edilərkən Ermənistan azərbay-canlıların oradan nəyinki rahat, heç salamat çıxmasına da imkan vermirdi: "500-dən artıq dinc sakin öldürülmüşdü. İnsanlar soyuqdan donaraq, ayaqyalın, başıaçıq, heç bir nəqliyyat vasitəsi olmadan, hətta özlərinə məxsus olan əşyalarını belə götürmə-yə imkan tapmadan sadəcə tək canlarını qurtarmağa çalışırdılar ki, buna baxmaya-raq erməni quldurları mülki Azərbaycan əhalisini qaçdığı yerdə atəşə tuturdu".

Ş.Həsənova vurğulayıb ki, Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin imzaladığı bəyanata uyğun olaraq Ermənistan Kəlbəcər, Laçın və Ağ-dam rayonlarının ərazilərini qeyd-şərtsiz azad etməlidir: "Azərbaycan isə hər zaman olduğu kimi humanizm prinsipinə sadiq qalaraq vasitəçilərin xahişi ilə ermənilərin Kəlbəcərdən çıxmasına xeyli vaxt verib, amma onlar erməni xislətinə sadiq qalaraq yenə öz vəhşiliklərini, barbarlıqlarını göstərirlər. Bütün bunlar bir daha Azərbaycan-la Ermənistanın fərqini əyani şəkildə, faktlarla sübut edir. Bu gün dünya ictimaiyyə-ti əgər bir tərəfdə vəhşi, vandal, barbar Ermənistan görürsə, digər tərəfdə isə huma-nist, tolerant Azərbaycan görür. Təbii ki, Ermənistan tərəfi vurduğu ziyanla bağlı Azərbaycan tərəfinə beynəlxalq hüquq qarşısında cavab verəcək və təzminat ödə-yəcək".

***Aysel Məmmədova**

## Erməni təxribatı nəticəsində ölən mülki şəxslərin sayı 94-ə çatdı



Erməni təxribatı nəticəsində ölən və yarala-nan mülki vətəndaşların sayı açıqlanıb. Baş Proku-rorluğun mətbuat xidmə-tindən SİA-ya verilən mə-lumata görə, sentyabrın 27-dən hazırkı vaxtadək ermənilərin yaşayış mən-təqələrini atəşə tutması nəticəsində 94 mülki şəxs həlak olub, 414 nəfər yara-lanıb. Bundan başqa, 512 mülki obyekt, 120 hündürmərtəbəli yaşayış bina-sı və 3410 yaşayış evi yararsız hala düşüb.

# Lənətlənmiş Nikol və Anna

***Nikol və Anna erməni xalqının lənəti altında yaşamalıdırlar. Təbii ki, əgər yaşaya bilsələr. Yəni, erməni cəmiyyəti onlara yaşamaq imkanı versə. Bu yalnız bizim fikirlərimiz deyil və indi hadisələrin gedişindən, yəni, "küçə nümayişçisi"nin erməni cəmiyyətini fasiləsiz şəkildə aldatmasından, döyüş zamanı belə yalançı qələbələrdən dəm vuraraq xalqını çaşdırmasından xəbəri olan dünya ictimaiyyəti də bu qənaətdədir. Hətta erməni cəmiyyətində də onun yalançılığı, hiyləgərliyi, öz postunu qoruması naminə manipulyasiyaları kəskin şəkildə etirazlarla qarşılanır.***



Ermənistanın Vatikandakı keçmiş səfiri Mikael Minasyanın öz Facebook səhifəsində yazdıqları da təsdiq edir ki, təmsil etdiyi xalq öz baş nazirini,



hətta onun döyüş meydanına yollanaraq selfi çəkdirib, bir növ əsgərləri ələ salan həyat yoldaşını da lənətləyir. Belə lənətlərə bir çox səlahiyyətlilərin dilindən də çox rast gəlinib. "Nikol ölkəni dağıtdı", deyə erməni cəmiyyəti düşünür. Oğlanlarını qurban verdikləri qənaətindədirlər. Düşünürlər ki, həmin "küçə nümayişçisi" onların ruhunu belə zəhərləyib. Elə hesab edirlər ki, Nikol onların keçmişini murdarlayıb, gələcəklərini də satıb, eləcə də hamını bir-birinə düşmən edib. Özü də bütün bunları ictimaiyyət qarşısında edib.

Məsələ burasındadır ki, erməni cəmiyyəti anladı ki, xəyali olan "Yeni Ermənistan" deyilən cəfəngiyyatdır. Demokratiya deyilən bir şey Ermənistanda yoxdur. Olacağına da güman yoxdur. Heç bir ictimai rəy nəzərə alınmır. Bundan sonra bu ölkənin ziyalısı da olmayacaq, çünki hesaba alınmır. Yalnız tərəflər olacaq. Qarşıdurma tərəfləri. Bu ölkədə düz və ya səhv deyilən bir ölçü də gözlənilən deyil. Bu ölçüsüzlüyü də Nikol Paşinyan gətirdi deyə düşünənlər az deyil.

"Yeni Ermənistan"da azadlıq döyüşçüləri yoxdur. Çünki azadlıq özü yoxdur və bu səbəbdən də onun üçün döyüşən yoxdur. Ən əsası, əsgəri, döyüşçüsü başqasının torpaqlarında döyüşə göndərilir və tələf edilir. Özü də məcburi şəkildə. Bəzilərini zəncirlə bağlayaraq mövqelərdə məcbur saxlayırlarsa, belə bir ölkədə hansı dəyərlərdən, hansı azadlıqdan danışmaq olar və nəyə ümid edə bilər ermənilər?

Suverenlik də yoxdur. Çünki başqalarına arxalanaraq müharibəyə, döyüşə çıxan bir işğalçı ölkə buna görə çox məhrumiyyətlərlə qarşılaşdı. Əvvəla, döyüşdə məğlubiyyətinə görə, canlı qüvvə, hərbi texnika, silah-sursat olmaqla, çox şeydən məhrum oldu. Bu məhrumiyyətlər də başqa məhrumiyyətləri doğurdu. Digər tərəfdən Rusiyadan ödənişsiz əsaslarla aldıqlarının müqabilində ölkənin gələcəyi, varı-yoxu rusların bir növ ayaqları altına atıldı. İndi hansı suverenlikdən dəm vura bilər Nikol və onunla eyni ağılda olan ağılsızlar?



Çox şeydən məhrum oldular. Bunun üçün də insanları, vətəndaşları günahkar çıxarmağa çalışanlar həyasızlığın son həddini nemayiş etdirir. Ermənistan vətəndaşları hələ 2018-ci ildə aldadıldı və onların halı vəhşicəsinə dağıdıldı. Küçə nümayişçisi buna nail oldu. İşğalçı ölkə vətəndaşları bir xaini seçdi və inadla seçimindən imtina etmək istəmədi, onu ardıcıl olaraq təsdiqlədi. İndi bu cəmiyyətin daxilindəki partlayışlar da məhz bu səbəbdən başadüşülləndir. Çünki, cevriliş yolu ilə də olsa özünü hakimiyyət kürsüsünə yerləşdirən, baş nazir postunu qamarlayan birini təsdiqləyən vətəndaşlar bunun müqabilində indi onun xəyanətkarlıqlarını ortara çıxarırlar və bundan dəhşətə gəlirlər. Gör vəziyyət nə yerdədir ki, yalan danışmaq üzrə, yalançılıqda "ixtisaslaşmış" erməni toplumu, hətta onun lobbisi belə Nikol Paşinyanın yalançılığından, daha doğrusu yalançılıq səviyyəsindən şok yaşayır. Bu qədər amansızlıqla manipulyasiya etməyin mümkün olduğuna ermənilər belə hələ də inana bilmirlər. İrəvanın küçələrindəki qəzəb, hirs tam şəkildə aydındır. Bu, Nikola, onun mütrüflük edərək döyüş zonasında sekfi çəkdirib pozlar verən arvadına olan lənətdir ki, yağdırılır. Hətta, keçə nümayişçisinə onların din xadimlərinin timsalında, bəziləri tərəfindən qarğışlar da edilir.

Sanki, Nikol Paşinyan bu vaxta qədər Ermənistan ictimaiyyətini, bu ölkənin vətəndaşlarını hipnoz etmişdi və indi kütlə bu hipnozdan ayılır. Bu ölkənin Azadlıq meydanında insanlar yığışıb qəzəblərini ifadə edirlər. Erməni xalqı deyilən bu toplum beli çantalı küçə nümayişçisinin məkrli ssenarisi ilə hadisələrin qurbanı olduğunun fərqindədir deyə, artıq lənəti də ortaya çıxır. Görəsən indi Nikol Paşinyan şərəf və ləyaqət haqqında necə qışqıracaq? Ümumiyyətlə, nə deyib qışqıracaq?

Şübhəsiz ki, ölən erməni əsgərlərinin ağrıdan əziyyət çəkən analarının, ürəkləri qubar olan ataların, sahibsiz qalan dul gəlinlərinin, yetim qalan balalarının ahı Nikol və Anna üçün dəhşətə çevriləcək. Həmin ah-naləden sonra bu cütlüyü hansı aqibət gözlədiyi də təxmin ediləndir.

***İnam Hacıyev***

## Azər Badamov: "Vandallıq və barbarlıq ermənənin qanındadır"



"Döyüş meydanında Azərbaycan əsgərinin qarşısında məğlub olan ermənilər boşaldılan ərazilərimizi dağıtmaqla, yandırmaqla, talamaqla öz düşmənçiliyini bir daha ifadə edirlər. Vandallıq və barbarlıq ermənənin qanındadır". Bunu "Səs" qəzetinə açıqlamasında millət vəkili Azər Badamov deyib.

Onun sözlərinə görə, Kəlbəcəri azərbaycanlılar tərk edəndə evlərinin qapılarına qıfıl vurub heç nə götürmədən çıxmışdılar: "Çünki azərbaycanlı bilirdi ki, gec-tez öz evinə qayıdacaqdır. Bu gün Kəlbəcəri tərk edən ermənilər özləri ilə nə mümkündürsə aparırlar, yerdə qalanı da məhv edirlər. Bu, ona görədir ki, Kəlbəcər heç vaxt erməni torpağı olmayıb. Erməni bilir ki, onların bir daha geriyə yolu yoxdur. Ermənilər həm də ekoloji terror həyata keçirirlər. Məni təəssüfləndirən meşələrin məhv edilməsidir. Meşələri, meyvə ağaclarını qırır, arxeoloji qazıntıları da aparırlar".

A.Badamov bildirdi ki, erməni şərəfsizlərin gözü o qədər acdır ki, hətta unitazı da qucağında tutub aparırlar: "Bu, ermənənin iç üzüdür. Vandallıq, vəhşilk, faşistlik və dünyanın hansı ən mundar adı varsa, bu şərəfsizlərə yaraşır. Qoy öz unitazlarını aparsınlar. Bizim ermənənin heç nəyinə ehtiyacımız yoxdur. Dövlətimiz öz doğma yurdlarına qayıdacaq sakinləri üçün ən müasir evlər tikib verəcək, şərait yaradılacaq, firavan həyat qurulacaq. Ermənilərin bu hərəkətlərin isə bütün dünya görür və bu xalqa qarşı nifrət daha da çoxalır".

Gülyana

## Ovannes Manukyan: "Paşinyan son paylaşımı ilə özünə siyasi məzar hazırladı"



Sonuncu paylaşımı ilə Nikol Paşinyan daha bir siyasi məzar qazmış oldu. SİA Ermənistana məxsus hayeli.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə keçmiş ədliyyə naziri Ovannes Manukyan öz Facebook səhifəsində yazıb. "Bu paylaşımla siyasi məzarınızı qazmadınız, çünki məzarınız son sənədi imzaladığınız zaman qazılmışdı, ancaq siyasi məzar hazırladınız. Səninlə vidalaşmıram, çünki sən gəlmədin. Gəlişinlə bağlı bir neçə müsbət söz dediyim günlərə lənət edirəm. Günahkaram", deyə Ovannes Manukyan bildirib.

Xatırladaq ki, bir qədər əvvəl Nikol Paşinyanın öz Facebook səhifəsində bir yazı paylaşmışdı və bildirmişdi ki, onları İrəvanda gözləyir və onun bu paylaşımı erməni cəmiyyətində rezonans doğurub. Qeyd edək ki, bununla bağlı səlahiyyətlilərin bir qismi artıq öz mənfi münasibətini bildirib.

# Qarabağda demoqrafik proseslər: tarix və bu gün

**Qarabağ bölgəsində (aran və dağlıq hissə) ermənilər əhalinin cəmi 23 faizini təşkil edirdi, 76 faiz isə azərbaycanlılar idi**

***Ermənilərin Osmanlı və İrandan son 2 əsrdə Qafqaza köçürülməsi və 1918-1920-ci illərdə Azərbaycan əraziləri (İrəvan, Zəngəzur və Göyçə mahalları) üzərində Ermənistan dövləti yaratmaları tarix elminə məlum faktdır. Lakin ermənilər təkcə bununla kifayətlənmədilər. Azərbaycanın Qarabağ bölgəsinə də köçən və məskunlaşan ermənilər çox keçməmiş orada da yerli əhalini didərgin salıb bölgəni ələ keçirməyə cəhd edirdilər. Lakin həm Ermənistanda, həm də işğal edilmiş Qarabağda erməni əhalisi nəinki artmağa, əksinə azalmağa başladı.***

Əgər bir ərazi bir xalqın tarixi torpağıdırsa və orada çoxluq təşkil edibsə, heç olmasa son 1000 ildə o torpağın hakimləri arasında həmin xalqın heç olmasa bir nəfər rəhbəri olmalı idi. Ermənilər isə belə bir nəfər göstərə bilmirlər. Təkcə bir faktı xatırlatmaq kifayətdir ki, qədimdən bəri Qarabağ hakimlərinin və xanlarının adları məlumdur və onların arasında bircə nəfər də erməni yoxdur. Həmişə, hər yerdə belə olub, haranın əhalisi hansı xalqdandırsa, hakimi də o xalq təyin edib.

Ermənilərin Qafqaza köçürülməsindən sonra belə onlara burada üstünlük təşkil etməmişlər. 16-17-ci əsrlərdə Qafqazda ermənilər "barmaqla sayılası" qədər olub. Osmanlı-Səfəvi müharibəsi zamanı Qarabağın türk-müsəlman əhalisinin 40 faizə qədəri ata-baba yurdlarını tərk etməyə məcbur qalmışdı. Vergidən azad olduqları üçün vergi siyahısında adı qeyd olunmayan din xadimləri, ordu mənsubları və döyüşlərdə ölən əsgərlərin sayını nəzərə alsaq, XVIII əsrin əvvəllərində Qarabağda yaşayan qeyri-müsəlmanların sayı 20 faizi keçməmişdir. Onların isə çox cüzi hissəsi ermənilər olub, əksər hissəsi xristianlığı qəbul etmiş yerli albanlar idi.

1747-ci ildə Nadir şah Əfşarın ölümündən sonra Cavanşir sülaləsindən olan Pənahəli xan Qarabağ xanlığının əsasını qoymuşdu. Bütün əhalisi yerli Azərbaycan tayfalarından ibarət olan Qarabağ xanlığı Kiçik Qafqaz dağlarının cənub-şərqində yerləşirdi. Xanlığın sərhədləri Araz çayından Göyçə gölünədək, Tərtər çayından bütün düzənlik və Qarabağın dağlıq hissəsini, Zəngəzuru, Bərgüşadı əhatə etməklə Mehri, Tatev və Sisyana qədər uzanırdı. Xanlıq bütünlüklə azərbaycanlıların yaşadığı Şəki, Gəncə, İrəvan, Naxçıvan, Qaradağ, Cavad və Şamaxı xanlıqları ilə həmsərhəd idi.

1828-ci ildə Rusiya İmperatoru I Nikolayın fərmanı ilə Azərbaycan İrəvan və Naxçıvan xanlıqları üzərində "Erməni vilayəti" yaradılanda burada olan 1111 kənddən yalnız 62-də ermənilər yaşayırdı, onlar da bir müddət əvvəl İrandan və Osmanlıdan köçürülənlər idi. Hətta bu 62 kəndin də belə yalnız 14-nün adı ermənicə verilmişdi.

1829-cu ildə əhalinin siyahıyalınmasında burada 81749 müsəlman- azərbaycanlı ailəsi, 25151 erməni ailəsi var idi. Hətta növbəti köçürülmələrdən sonra 1834-cü ildə belə İrəvan şəhəri və ətrafında yaşayan 2750 ailədən 1807-si azərbaycanlı ailəsi idi.

Son 3 əsrdə Qarabağ xanları arasında da bircə nəfər belə erməni və ya digər xalqın nümayəndəsi yoxdur. Bütün dünyaya məlumdur ki, bir ərazidə hansı xalq hakim olubsa, rəhbər də o xalqdan olub. 19-cu əsr ərzində Qafqazda yaşayan xalqların sayı məlumdur, dəfələrlə Rusiya tərəfindən aparılan siyahıyaalmalarda da bu aşkar görünür- hətta ermənilərin kütləvi köçürülmələrindən sonra belə hazırkı Azərbaycan və Ermənistan ərazilərində azərbaycanlıların sayı azı 70-80 faiz civarında olub.




Azərbaycan tarixçiliyində Qarabağ xanlığının tarixini öyrənmək üçün mühüm tarixi mənbələrdən olan "Qarabağnamələr" salnaməsində xeyli qiymətli faktlar və məlumatlar var. Xanlığın meydana gəlməsi ərəfəsində qısa zaman kəsiyinin tarixi hadisələrini özündə əks etdirən "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" əyalətin demoqrafik vəziyyəti və əhalisinin etnik tərkibi barədə verdiyi məlumatlar dolğunluğu ilə seçilir.

Tarixçi alim H.Məmmədov "Müfəssəl dəftər" materialları əsasında təhlillər aparmış, əyalətin əhalisinin sayı və etnik tərkibinə aid qiymətli nəticələr əldə edə bilmişdir. Onun hesablamalarına görə, Qarabağ əyalətində 19.395 mükəlləfiyyətli ailə başçısı və hər ailə isə orta hesabla beş nəfərdən götürüldükdə, əhalinin ümumi sayı təxminən 96.975 nəfərdən ibarət olmuşdur. Bu müəllif belə hesab edir ki, "Müfəssəl dəftər"də məlumatlar vergi mükəlləfiyyəti daşıyanları əhatə etdiyinə, hərbçilər, ruhanilər və onların ailə üzvləri nəzərə alınmadığına görə yuxarıda əhalinin sayı haqqında verilmiş rəqəm minimumdur, həqiqətdə isə əhalinin ümumi sayı 100 mindən çox olardı. "Müfəssəl dəftər"də Şəmkürbasan və Böyük Kürəkbasan nahiyələrində cəmi 25 kəndin qeyri-müsəlman kəndi olduğu göstərilir. Qeyri-müsəlmanların çox böyük əksəriyyətini isə XVIII əsrdə də albanlığını unutmamış xristian əhalisi təşkil edirdi.

1822-ci ildə Qarabağ xanlığı Rusiya imperiyası tərəfindən ləğv edilib, onun əyalətlərindən birinə çevrilməsindən sonra əhali siyahıya alınmışdır. 1823-cü il siyahıyaalınmasına görə Qarabağ xanlığında əhalinin ümumi sayı 90.000 nəfər idi. Şəhər və kəndlərdə 18.563 ev var idi k, onun da 17 mindən çoxunu isə Azərbaycanlı ailələri təşkil edirdi. Türkmənçay sülh müqaviləsindən sonra, məlum olduğu kimi, xaricdən Qarabağa ermənilərin kütləvi şəkildə köçürülüb yerləşdirilməsi və müharibələr zamanı Qarabağı tərk etmiş müsəlman-türk əhalisi öz doğma yurd yerlərinə dönmələri nəticəsində burada əhali artırdı. 1832-ci ilin kameral təsvirində Şuşada və Qarabağın 741 kəndi və obasında 20.546 ailə qeydiyyata alınmışdır. Bunun 13.965 ailəsi müsəlmanların, 6.491 ailəsi isə ermənilərin, çox cüzi hissəsi isə qaraçıların payına düşürdü.

1805-ci ildə İbrahim xan Rusiya qoşunlarının komandanı R.D.Sisianovla Kürəkçayda müqavilə bağladı. Kürəkçay müqaviləsinə əsasən, Qarabağ xanlığı məhz müsəlman- Azərbaycan torpağı kimi Rusiyaya ilhaq olundu. Tarixi reallığı əks etdirən Kürəkçay müqaviləsi, eyni zamanda, Qarabağın, o cümlədən bu diyarın dağlıq hissəsinin Azərbaycan xalqına məxsus olduğunu sübut edən ən mötəbər sənəddir.

1828-ci il Türkmənçay müqaviləsi və 1829-cu il Ədirnə müqaviləsi ilə İrandan və Osmanlı imperiyasından ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilməyə başlayır. Ermənilərin köçürülməsinin əsas istiqamətlərindən biri də Qarabağ ərazisi idi. Bu müqavilələrlə 84 000 erməni qarabağ və ətraf rayonlara köçürülüb. Rəsmi məlumatlara əsasən, 1828-1830-cu illər arasında, yəni cəmi 2 il ərzində, Şimali Azərbaycana, o cümlədən Qarabağa İrandan 1825-1826 tarixləri arasında 18 000, 1828-dən sonra 50 000, Osmanlı imperiyasından isə 84 min erməni köçürüldü. Qeyri-rəsmi erməni köçkünləri ilə birlikdə onların sayı 200 mini ötmüşdü. Köçürülmədən sonra Qarabağın etnik tərkibində ermənilərin sayı artmağa başladı.

Buna baxmayaraq 1832-ci ildə Qarabağın 64,4%-i Azərbaycanlı, 34,8%-i erməni idi. XX əsrin ortalarından başlayaraq ermənilər sayca Qarabağın dağlıq hissəsində üstünlük təşkil etməyə başladılar. 1990-cı ildə Qarabağın əhalisi 192 000-ə çatmışdı. Əhali tərkibi ermənilərdən (76%), azərbaycanlılardan (23%), kürdlərdən və ruslardan ibarət idi.

XIX yüzilin 30-cu illərindən sonra da ermənilərin Şimali Azərbaycan torpaqlarına, o cümlədən Qarabağa kütləvi köçü davam etdi. Rus qafqazşünası N.Şavrov yazırdı (1911): "Zaqafqaziyadakı 1,3 mln erməninin 1 mln-dan çoxu gəlmədir".

Ermənilərin Ermənistana və Azərbaycana köçməsi XX əsrdə də davam edib. Onların çoxu Qarabağda məskunlaşırdı. Nəticədə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində ermənilərin sayı 70 faizi keçmişdi. Lakin bütün Qarabağ bölgəsində (aran və dağlıq hissə) ermənilər əhalinin cəmi 23 faizini təşkil edirdi, 76 faiz isə azərbaycanlılar idi.

/Aşağıda Qafqazın 1915-ci ilə aid etnik xəritəsinə bax. Wiliam Zebina Ripleyin "Avropanın millətləri" kitabından/

Münaqişə nəticəsində Ermənistan və Qarabağdan 800 min azərbaycanlı məcburi köçkün qovulub. Bu Ermənistandakı demoqrafik böhranı daha da gücləndirdi, Azərbaycanda isə sosial-iqtisadi problem yaratdı. İşğaldan sonra Qarabağı məskunlaşdırmaq niyyəti ilə, həm Ermənistandan, həm də xarici ölkələrdən oraya xeyli erməni köçürüldü. Lakin bu, demoqrafik vəziyyəti yaxşılaşdırmadı, əksinə, Qarabağda erməni əhalisi 2 dəfədən çox azaldı. Sovet vaxtı burada 130 min erməni yaşayırdı, son illərdə isə xarici təşkilatlar 50 min erməninin yaşadığını bildirirdi.

Getdikcə, nəinki Qarabağda, Ermənistanda belə əhali getdikcə azalır və demoqrafik böhran kəskinləşirdi. Ağır vəziyyətdə olan, sosial-iqtisadi böhran içində olan ölkədən əməkqabiliyyətli əhali başqa ölkələrə köçürdü. Bu müharibənin nəticələri isə daha ağır olacaq. Daha yüz minlərlə erməni ölkəni tərk edəcək.

Azərbaycan isə belə problem yoxdur. İşğaldan azad edilmiş ərazilərə qayıdacaq azı yarım milyon köçkün Qarabağda demoqrafik vəziyyətin normallaşmasını təmin edəcək. Bu bölgənin tarixi sahibləri orada daim yaşayacaq və öz tarixlərini, mədəniyyətlərini yaşadacaq. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, biz Qarabağa qayıdacaq və öz tarixi torpağımızda əbədi var olacağıq.

**Elçin Bayramlı**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

17 noyabr

Son səhifə

## Serxio Ramosdan İspaniya millisində yeni rekor

Futbol üzrə İspaniya millisinin və "Real Madrid" klubunun futbolçusu Serxio Ramos yeni rekorda imza atıb.

Belə ki, 34 yaşlı müdafiəçi buna UEFA Millətlər Liqasının 5-ci turunda İsveçrə ilə matçda nail olub. O, həmin oyunda iştirak etməklə yığmanın heyətində çıxdığı qarşılaşmaların sayını 177-yə çatdırıb. Bu isə Avropada milli komandalar üçün yeni rekord sayılır. Bunadək ən yüksək göstərici İtaliya yığmasında 176 oyun keçirən Canluici Buffona məxsus idi. Qeyd edək ki, İsveçrə - İspaniya görüşü 1:1 hesablı heç-heçə ilə başa çatıb.

## "Yuventus" daha bir portuqaliyalı futbolçu transfer edəcək

İtaliyanın "Yuventus" klubu heyətinə daha bir portuqaliyalı futbolçu qatmaq qərarına gəlib. A seriyası təmsilçisi İngiltərə "Vulverhempton"unda çıxış edən Portuqaliya millisinin üzvü Pedru Netunu heyətinə qatmaq istəyir. 20 yaşlı portuqaliyalı yarımmüdafiəçinin keçidi ilə bağlı danışıqlara start verib. Bu transferdə vasitəçi kimi Kriştiano Ronaldonun agenti Jorje Mendeş iştirak edir. Qeyd edək ki, Netu cari mövsüm Premyer Liqada 8 oyunda 1 qol vurub.



## BMT-dən xəbərdarlıq: COVID-19 diabet xəstələri üçün xüsusilə təhlükəlidir



Diabetin profilaktikası və müalicəsi üçün böyük səylər göstərilsə də, bu xəstəlikdən əziyyət çəkən insanların sayı artmaqdadır.

AZƏRTAC BMT-nin Xəbərlər Xidmətinə istinadla bildirir ki, BMT-nin Baş katibi bu barədə noyabrın 14-də qeyd olunan Ümumdünya Diabetlə Mübarizə Günü münasibətilə xatırladıb.

Dünyada bu xəstəlikdən 422 milyon insan əziyyət çəkir. Hər il 1,6 milyon insan isə diabet xəstəliyindən həyatını itirir. 2030-cu ildə bu xəstəlik insanın əsas "qatilləri" siyahısında yeddinci yeri tutacaq.

BMT başçısının sözlərinə görə, əhalinin həkimə müraciət etmək və lazımi müalicə almaq imkanının olmadığı aşağı və orta gəlirli ölkələrdə diabet xəstələrinin sayı daha tez artır. "COVID-19 pandemiyası əlavə problemlər yaradır. Diabet xəstəliyinə görə müntəzəm qayğıya və müalicəyə ehtiyacı olanların çoxu müvafiq yardımları almaqda çətinlik çəkirlər. Eyni zamanda, diabetdən əziyyət çəkən xəstələrin şiddətli koronavirus infeksiyasına məruz qalmaları onların həyatı üçün çox təhlükəlidir", - deyə Quterreş qeyd edib. BMT Baş katibinin bildirdiyinə görə, gələn il Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Diabetlə Mübarizə üzrə Qlobal Müqavilədə nəzərdə tutulanları həyata keçirməyə başlayacaq. Yeni təşəbbüs, diabet xəstəliyinin və bununla bağlı ölüm hallarının artmasına qarşı səylərin daha da gücləndirilməsinə yönəldiləcək. "Biz COVID-19 pandemiyasını aradan qaldırmaqla yanaşı, səhiyyə xidmətlərinin ümumi əhatə dairəsini təmin etmək, bu sahənin möhkəmləndirilməsini və sağlam həyat tərzinin təşviqi istiqamətində əlimizdən gələni əsirgəməməliyik", - deyə BMT-nin Baş katibinin bəyanatında bildirilir.

## Azərbaycanda yenidən sərt karantin olacaq?: Təhlükə ilə üz-üzəyik...

Son günlər Azərbaycanda koronavirusa (COVID-19) yoluxma günlük 2 min nəfəri ötüb. Bəs, mövcud yoluxma statistikasının azalması ilə bağlı hansı təkliflər edilməlidir?. Professor Adil Qeybulla Redaktor.az-a açıqlamasında bildirib ki, hər hansı təkliflərin edilməsi məsələsi geridə qaldı: "Artıq təkliflər etməyin vaxtı keçib. Çünki bundan sonrası sadəcə sərt tədbirlərin həyata keçirilməsidir. Bu da hazırkı dövrdə, əhalinin mövcud psixoloji durumunda heç məqsədə uyğun deyil. Buna görə də karantin davranışlarına ciddi nəzarət edilməlidir. Yəni, qapalı məkanlarda insanların fiziki məsafə gözləməsinə, maskadan düzgün istifadə etməsinə, əllərin dezinfeksiyasının həyata keçirilməsinə ciddi nəzarət edilməlidir. Bütün bunlara daha çox ictimai nəqliyyatda nəzarət olunmalıdır. İctimai nəqliyyat yoluxmanın əsas mənbəyidir. Hazırda metronun işləməməsi yükün çox hissəsinin ictimai nəqliyyata düşməsinə səbəb olub.



Yoluxmaların sayı, statistikası həddən artıq çoxdur. Əslində bu kollektiv immunitetdir. Müşahidə etdikdə görürük ki, əhalinin böyük əksəriyyəti virusa yoluxub. Bu mənada da rəsmi rəqəmlər də tam reallığı əks etdirmir. Çünki bir çox insan qeydiyyatdan keçmir, evdə müalicə olunur. Həmin insanların rəsmi olaraq testlərdən keçməməsi, həkim nəzarətində olmaması, evdə müalicə almaq istəyi hazırki rəqəmlərdən, statistikadan kənarda qalmalarına səbəb olur. Bütün bunları nəzərə alsaq, deyə bilərik ki, real vəziyyət daha ciddidir".

## Qədim Misirə aid 100-dən çox mumiya tapılıb

Misirin Saqqara arxeoloji məkanında 100-dən çox mumiya aşkar edilib. AZƏRTAC xəbər verir ki, Misirin turizm və qədim abidələr naziri Xalid Ənani ölkədə fəaliyyət göstərən xarici jurnalistlərin iştirakı ilə keçirilən mətbuat konfransında onları təqdim edib. O bildirib ki, oktyabrın 3-də beynəlxalq arxeoloji ekspedisiya həmin ərazidə 101 mumiya tapıb. Bundan əvvəl isə Saqqarada 59 sarkofaq aşkar edilib.



Nazir məlumat verib ki, tapılan mumiyaların olduğu tabutlar Qədim Misirin son - Ptolemeylər sülaləsinin hakimiyyəti dövrünə aiddir və mütəxəssislər onların 2500 il yaşı olduğu qənaətindədir. Mumiyalarla yanaşı, Saqqarada 40 kiçik heykəl, dəfn maskaları və iki taxta heykəlcik də aşkar edilib. Qeyd olunub ki, son qiymətli arxeoloji tapıntılar gələn il açılışı olacaq Böyük Misir Muzeyində və ölkənin yeni inzibati paytaxtındakı Mədəniyyət və İncəsənət Muzeyində nümayiş etdiriləcək.

## FIFA "Liverpul" kluba kompensasiya ödəyəcək

FIFA İngiltərənin "Liverpul" klubuna 2 milyon funt- sterlinq məbləğində kompensasiya ödəyəcək. AZƏRTAC xəbər verir ki, ödəniş klubun müdafiəçisi Co Qomesin yığmada zədələnməsi ilə əlaqədar aparılacaq. İyirmi üç yaşlı oyunçu millinin düşərgəsində dizindən xəsarət alaraq uzun müddətədək sıradan çıxıb. FIFA Qomesə kompensasiya ödəməyə razılaşıb.

Qeyd edək ki, bunadək "Liverpul"da daha bir müdafiəçisi Virgil van Deyk və yarımmüdafiəçi Fabinyo da sıradan çıxıb.

## ELAN

Bakı şəhəri, Abşeron rayonu Masazır qəsəbəsində yerləşən Bağçalı Evlər MTK tərəfindən Mahmudov Samir Şahnəzər oğlunun adına verilmiş 6\46 saylı maliyyə arayışı və müqavilə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600